

100 ilin qəzeti

ŞƏRQ QAPISI

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Sayı: 44 (24.530)

14 noyabr 2026-cı il, şənbə

www.serqqapisi.az

Təsisçi: Naxçıvan Muxtar Respublikasının Ali Məclisi

Şuşa görüşü: Azərbaycan-Türkiyə sarsılmaz qardaşlığının və ortaq siyasi iradənin göstəricisi



Azərbaycan və Türkiyə. Bu iki dövlət arasındakı münasibətlər beynəlxalq əlaqələr sistemində özünəməxsus yeri və mahiyyəti ilə seçilir. Bu münasibətləri yalnız diplomatik tərəfdaşlıq, iqtisadi əməkdaşlıq və ya ortaq tarixi köklərlə izah etmək mümkün deyil. Çünki Azərbaycan-Türkiyə əlaqələrinin əsasında xalqlarımızın əsrlər boyu formalaşmış mənəvi bağlılığı, qarşılıqlı etimadı, ortaq dəyərləri, eləcə də dövlət başçılarının nümayiş etdirdiyi sarsılmaz siyasi iradə dayanır.

Türkiyə Cümhuriyyətinin qurucusu Mustafa Kamal Atatürkün ötən əsrin əvvəllərində səsləndirdiyi *"Azərbaycanın sevinci bizim sevincimiz, kədəri bizim kədərimizdir"* kəlamı bu qardaşlığın mənəvi təməlini ifadə edir. Onilliklər sonra Ümummilli Lider Heydər Əliyevin ***"Bir millət, iki dövlət"*** fəlsəfəsi isə həmin bağlılığı müasir dövlətlərarası münasibətlərin ideoloji və siyasi məzmununa çevirdi. Hər iki tarixi şəxsiyyətin fikirlərini birləşdirən əsas məqam Azərbaycan və Türkiyənin taleyinin, maraqlarının və gələcəyinin qarşılıqlı bağlılığıdır. Məhz bu möhkəm təməl üzərində formalaşan münasibətlər zamanın sınaqlarından keçərək 2021-ci ildə Şuşa şəhərində strateji müttəfiqlik səviyyəsinə yüksəldi. Bu gün Prezident İlham Əliyev və Prezident Rəcəb Tayyib Ərdoğanın rəhbərliyi ilə həmin tarixi miras yeni siyasi reallıqlar və konkret əməkdaşlıq istiqamətləri ilə zənginləşdirilir.

Noyabrın 8-də Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın Zəfər Günü münasibətilə ölkəmizə səfəri də bu münasibətlərin mahiyyətini və gələcək inkişaf istiqamətlərini bir daha gündəmə gətirdi. Səfərin Qarabağda, Şuşada baş tutması, Prezident İlham Əliyev və Prezident Rəcəb Tayyib Ərdoğanın birgə bəyanatlarla çıxış etməsi mühüm siyasi və diplomatik məna daşıyırdı. Bu, Azərbaycan-Türkiyə birliyinin konkret siyasi addımlarda, tarixi hadisələrə münasibətdə və gələcəyə dair ortaq mövqedə təzahürünün növbəti ifadəsi oldu.

Şuşadan verilən mesaj: birliyin sarsılmazlığı və siyasi qətiyyət

Prezident İlham Əliyevin və Prezident Rəcəb Tayyib Ərdoğanın Şuşada keçirdikləri görüşün, mətbuata verdikləri bəyanatların əsas xəttini iki ölkə arasındakı qardaşlıq münasibətlərinin dəyişməzliyi təşkil etdi. Dövlətimizin başçısı səfərin əsas nəticəsini ifadə edərkən Azərbaycan-Türkiyə birliyinin əbədiliyini və sarsılmazlığını xüsusi vurğuladı. Prezident İlham Əliyevin ***"Türkiyə-Azərbaycan birliyi əbədidir və sarsılmazdır"*** fikri görüşün siyasi mahiyyətini ifadə edən başlıca mesajlardan biri kimi yadda qaldı: ***"Təbii ki, ikitərəfli əlaqələr haqqında danışarkən bir çox məsələlər haqqında danışa bilərik. Bütün bu məsələlər bəllidir, siyasi, iqtisadi əlaqələr, sərmayə qoyuluşu, enerji, nəqliyyat dəhlizləri, Zəngəzur dəhlizi – bütün bunlar bu gün geniş müzakirə olundu. Amma hesab edirəm ki, səfərin əsas nəticəsi məhz dediyim kimidir: "Türkiyə-Azərbaycan birliyi əbədidir və sarsılmazdır".***

Dövlət başçımızın bu fikirləri Şuşada, məhz Şuşa Bəyannaməsinin imzalandığı məkanda səsləndirməsi xüsusi rəmzi və siyasi məna daşıyır. Çünki Şuşa Azərbaycan xalqının tarixi yaddaşını, milli iradəsini və dövlət suverenliyini təcəssüm etdirən şəhərdir. 2021-ci il iyunun 15-də burada imzalanmış Şuşa Bəyannaməsi isə Azərbaycan-Türkiyə münasibətlərinin müttəfiqlik səviyyəsinə yüksəldilməsini rəsmiləşdirən tarixi sənəddir. Bu sənədlə iki ölkə arasında siyasi, iqtisadi, hərbi, təhlükəsizlik və digər sahələrdə əməkdaşlığın dərinləşdirilməsi üçün möhkəm hüquqi-siyasi çərçivə formalaşdırılıb.

Prezident İlham Əliyevin ***"Şuşa Bəyannaməsi, sadəcə olaraq, bu tarixi, mədəni əlaqələri rəsmi çərçivəyə salmışdır"*** fikri sənədin mahiyyətini dolğun şəkildə ifadə edir. Başqa sözlə, Bəyannamə xalqlarımız arasında əsrlər boyu mövcud olan qardaşlığı dövlətlərarası münasibətlərin strateji müttəfiqlik səviyyəsində hüquqi-siyasi əsaslarla möhkəmləndirib.

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan da bəyanatında bu məqama xüsusi diqqət çəkərək Şuşa Bəyannaməsi ilə möhkəmləndirilən qardaşlığı zəiflətməyə çalışanların dünən olduğu kimi, bu gün və sabah da məqsədlərinə nail ola bilməyəcəklərini bildirdi. Onun Ümummilli Lider Heydər Əliyevin ***"Bir millət, iki dövlət"*** prinsipinə istinadı, eləcə də bu qardaşlığı "sönməz bir məşəl" adlandırması münasibətlərin dəyişməz mahiyyətini bir daha təsdiqlədi.

Diqqətçəkən məqamlardan biri də Prezident İlham Əliyevin iki ölkə arasındakı münasibətlərə kölgə salmaq istəyənlərə ünvanladığı qətiyyətli mesaj idi: ***"Bizim birliyimiz, qardaşlığımız sarsılmazdır. Bunu sarsıtmaq istəyənlər isə öz arzularına heç vaxt çatmayacaqlar. Onların arzuları onların gözlərində qalacaq. Biz – iki xalq, ilk növbədə, iki lider bu sərvəti qoruyuruq və heç kimə imkan vermərik ki, bizim aramıza girsin, yaxud da öz şəxsi maraqları naminə bizim birliyimizə, qardaşlığımıza, həmrəyliyimizə kölgə salsın".***

Bu fikirlər Azərbaycan-Türkiyə münasibətlərinin gündəlik müzakirələrdən və kənar təsirlərdən asılı olmadığını, dövlətlərin strateji maraqlarına, qarşılıqlı etimada və siyasi iradəyə söykəndiyini göstərir. Eyni zamanda ayrı-ayrı məsələlər ətrafında yaranan fikir ayrılıqlarının iki dövlətin strateji müttəfiqliyinin mahiyyətini dəyişdirmədiyi, münasibətlərin dialoq və qarşılıqlı hörmət prinsipləri əsasında davam etdiyi mesajı verildi. Bu baxımdan, Şuşadan səslənən bəyanatlar təkcə mövcud münasibətlərin qiymətləndirilməsi deyil, həm də gələcək əməkdaşlığın istiqamətlərinə dair ortaq siyasi iradənin ifadəsi kimi dəyərləndirilməlidir.

Zəfər Günündə səfər: ortaq sevinc, tarixi yaddaş və mənəvi həmrəylik

Prezident Ərdoğanın səfərinin 8 Noyabr – Zəfər Günündə reallaşması heç də təsadüfi deyil. Türkiyə 44 günlük Vətən müharibəsi dövründə Azərbaycanın haqq işinə siyasi və mənəvi dəstəyini açıq şəkildə ifadə etdi, qardaş ölkənin ərazi bütövlüyü məsələsində prinsipial mövqe ortaya qoydu. Müharibənin ilk saatlarından Türkiyə rəhbərliyinin verdiyi bəyanatlar Azərbaycanın beynəlxalq hüquqa əsaslanan mövqeyinin müdafiəsi baxımından mühüm əhəmiyyət daşıyırdı.

Prezident İlham Əliyev Şuşadakı bəyanatında həmin günləri xatırladaraq Türkiyə Prezidentinin müharibənin ilk saatlarında verdiyi bəyanatın Azərbaycan xalqına əlavə güc və ruh verdiyini xüsusi vurğuladı. Dövlət başçısının Rəcəb Tayyib Ərdoğanın 2020-ci ildə səsləndirdiyi *"Azərbaycan tək deyil, Türkiyə onun yanındadır"* tarixi mesajını xatırlatması bu dəstəyin xalqımızın yaddaşında necə dərin iz buraxdığını nümayiş etdirir.

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan da Qarabağ Zəfərini yalnız Azərbaycanın deyil, bütün Türk dünyasının qürur mənbəyi kimi səciyyələndirdi: *"Bu Şanlı Zəfər Azərbaycanın haqlı mübarizəsinin ən gözəl nümunəsi və bütün türk coğrafiyasının qürur mənbəyi olmaqda davam edir"*. Bu mövqe Azərbaycanın qazandığı tarixi Qələbənin Türk dünyasında doğurduğu siyasi və mənəvi əks-sədanı ifadə edir.

Səhifə 2

Şuşa görüşü: Azərbaycan-Türkiyə sarsılmaz qardaşlığının və ortaq siyasi iradənin göstəricisi



(əvvəli 1-ci səhifədə)

Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini bərpa etməsi yalnız ölkəmizin tarixində yeni mərhələnin başlanğıcı deyil, bütövlükdə, Cənubi Qafqazın geosiyasi mənzərəsində də mühüm dəyişikliklərə səbəb olub. Prezident Ərdoğanın Azərbaycanın torpaqlarını işğaldan azad etməsinin regionda yeni dövrə qapı açdığını bildirməsi bu reallığın Türkiyə tərəfindən də qəbul edildiyini göstərir.

Zəfərdən sonra qarşıda duran əsas vəzifələrdən biri isə regionda dayanıqlı sülhün və sabitliyin təmin edilməsidir. Türkiyə Prezidentinin döyüş meydanında qazanılan Qələbənin davamlı sülhlə möhkəmləndirilməsinin vacibliyini vurğulaması bu baxımdan xüsusi əhəmiyyət daşıyır: *"Biz Azərbaycanın haqlı mübarizəsini sahibləndiyimiz kimi, bölgəmizdə dayanıqlı sülhün bərqərar olması yönündə səmimi səylərini dəstəkləyirik"*. Bu, Azərbaycanın sülh gündəliyinə verilən siyasi dəstəyin ifadəsidir.

Bu gün Qarabağ və Şərqi Zəngəzurda genişmiqyaslı bərpa-quruculuq işlərinin aparılması, keçmiş məcburi köçkünlərin doğma yurdlarına qayıdışı postmünaqişə dövründə dövlət siyasətinin əsas istiqamətlərindəndir. Prezident Ərdoğan Azərbaycanın bu sahədə gördüyü işləri yüksək qiymətləndirərək Qarabağda yenidən yanan hər ocağın, yüksələn hər binanın və bərpa olunan tarixi irsin xalqımızın gələcəyə inamını nümayiş etdirdiyini bildirdi.

Türkiyənin bu prosesə töhfəsi isə siyasi bəyanatlarla məhdudlaşmır. Cəbrayılda Azərbaycan-Türkiyə Beynəlxalq Meşə Təlim Mərkəzinin və "Ağıllı Tingçilik" Müəssisəsinin yaradılması, Ağdamda Türkiyə tərəfindən məktəb tikintisinə başlanılması qardaşlığın konkret layihələrdə təcəssümüdür. Prezident Ərdoğanın bu layihələri xüsusi qeyd etməsi iki ölkənin əməkdaşlığının Qarabağın bərpası və gələcək inkişafı ilə də sıx bağlı olduğunu göstərir.

Strateji müttəfiqlik regional təhlükəsizlik və sülhün mühüm amilidir

Azərbaycan-Türkiyə münasibətlərinin mühüm istiqamətlərindən biri regional təhlükəsizlik və sabitliyin təmin edilməsidir. Prezident İlham Əliyevin Şuşada Türkiyə-Azərbaycan birliyini sabitlik, əməkdaşlıq və təhlükəsizlik amili kimi səciyyələndirməsi bu tərəfdaşlığın yalnız ikitərəfli münasibətlərlə məhdudlaşmadığını göstərir. Dövlət başçısı Türkiyənin beynəlxalq miqyasda artan siyasi çəkisinə və iqtisadi gücünə diqqət çəkərək Azərbaycanın da son illərdə böyük inkişaf yolu keçdiyini vurğuladı. ***"Biz birlikdə daha da güclüyük"*** fikri isə iki ölkənin imkanlarının və siyasi potensialının qarşılıqlı şəkildə tamamlandığını ifadə edir.

Cənubi Qafqazda yeni geosiyasi reallıqların formalaşdığı, nəqliyyat-kommunikasiya xətlərinin açılmasının, regional iqtisadi əlaqələrin genişləndirilməsinin və davamlı sülhün təmin olunmasının aktuallaşdığı bir dövrdə Bakı ilə Ankara arasında koordinasiyanın əhəmiyyəti daha da artır. Azərbaycanın əlverişli coğrafi mövqeyi, Türkiyənin regional və beynəlxalq miqyasda artan siyasi-iqtisadi imkanları iki ölkəni bir sıra strateji məsələlərdə təbii tərəfdaşa çevirir.

Bu əməkdaşlığın mühüm istiqamətlərindən biri də Türk Dövlətləri Təşkilatı çərçivəsində birgə fəaliyyətin gücləndirilməsidir. Prezident Ərdoğanın təşkilatın hazırkı səviyyəsini ortaq iradə və səylərin nəticəsi kimi qiymətləndirməsi, Azərbaycanın sədrliyi dövründə Türk dünyasının birliyi və möhkəmliyi naminə göstərdiyi səylərə görə təşəkkür etməsi Bakının bu platformadakı roluna verilən yüksək qiymətdir. Türkiyə Prezidentinin öz ölkəsinin sədrliyi dövründə təşkilatın daha güclü və institusional quruma çevrilməsi üçün çalışacağını bildirməsi isə ortaq siyasi gündəliyin gələcək mərhələsinə dair mühüm mesajdır.

İki ölkənin siyasi və diplomatik koordinasiyası, enerji təhlükəsizliyi, nəqliyyat dəhlizləri, müdafiə sənayesi və iqtisadi əməkdaşlıq sahələrində qarşılıqlı fəaliyyətinin genişlənməsi regionun beynəlxalq iqtisadi sistemə inteqrasiyası baxımından da mühüm əhəmiyyət daşıyır. Xəzər hövzəsi ilə Aralıq dənizi arasında formalaşan nəqliyyat və enerji əlaqələri, Şərq-Qərb istiqamətində yükdaşımaların artırılması Azərbaycan və Türkiyənin ortaq maraqlarını daha da gücləndirir.

Prezident İlham Əliyevin bəyanatında Zəngəzur dəhlizinin geniş müzakirə olunan məsələlər sırasında qeyd edilməsi bu istiqamətin ikitərəfli əməkdaşlıq və regional bağlantıların gələcəyi baxımından əhəmiyyətini bir daha göstərir. Nəqliyyat kommunikasiyalarının açılması və iqtisadi əlaqələrin genişlənməsi Azərbaycan-Türkiyə tərəfdaşlığının strateji gündəliyində mühüm yer tutur.

İqtisadi potensial və gələcək əməkdaşlığın perspektivləri

Azərbaycan-Türkiyə münasibətlərinin siyasi müttəfiqlik səviyyəsində inkişafı iqtisadi əlaqələrin genişləndirilməsi üçün də əlverişli zəmin yaradır. İki ölkə arasında enerji sahəsində formalaşmış əməkdaşlıq artıq regional və beynəlxalq əhəmiyyət kəsb edir. Bakı-Tbilisi-Ceyhan neft kəməri, Cənub Qaz Dəhlizi və TANAP kimi layihələr Azərbaycanın enerji resurslarının dünya bazarlarına çatdırılmasında, Türkiyənin isə mühüm enerji tranzit mərkəzinə çevrilməsində əhəmiyyətli rol oynayır.

Bununla yanaşı, ticarət dövriyyəsinin artırılması, qarşılıqlı investisiyaların təşviqi, sənaye, kənd təsərrüfatı, turizm, rəqəmsal texnologiyalar və müdafiə sənayesi sahələrində əməkdaşlığın genişləndirilməsi üçün də böyük imkanlar mövcuddur. Azərbaycanın işğaldan azad edilmiş ərazilərində həyata keçirilən iqtisadi layihələr Türkiyə şirkətləri üçün də yeni əməkdaşlıq perspektivləri yaradır.

Şuşa görüşündə ikitərəfli münasibətlərin siyasi və iqtisadi istiqamətlərinin, sərmayə qoyuluşunun, enerji və nəqliyyat dəhlizlərinin müzakirə edilməsi göstərir ki, iki ölkənin strateji müttəfiqliyi konkret iqtisadi nəticələrlə də zənginləşdirilir. Gələcək mərhələdə birgə istehsal və investisiya layihələrinin genişləndirilməsi, iqtisadi əlaqələrin şaxələndirilməsi və mövcud potensialdan daha səmərəli istifadə mühüm vəzifələrdəndir.

Türkiyə Prezidentinin Şuşaya səfəri zamanı Qarabağda həyata keçirilən infrastruktur layihələrinə diqqət çəkməsi də bu əməkdaşlığın perspektivlərini nümayiş etdirir. Onun səfər marşrutu boyunca keçdiyi yeddi tuneli xüsusi qeyd etməsi, bölgədə aparılan quruculuq işlərini yüksək qiymətləndirməsi Azərbaycanın işğaldan azad edilmiş ərazilərdə yaratdığı yeni infrastrukturun miqyasını göstərən mühüm məqamlardandır. Ərdoğanın növbəti səfərdə Şuşa və Füzulinin daha fərqli görkəmdə olacağına inamını ifadə etməsi isə quruculuq prosesinin davamlılığına dair nikbin mesajdır.

Şuşadan gələcəyə uzanan sarsılmaz qardaşlıq və birlik

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın noyabrın 8-də Azərbaycana səfəri və Şuşada səsləndirilən bəyanatlar Azərbaycan-Türkiyə münasibətlərinin möhkəm tarixi, mənəvi və siyasi əsaslara söykəndiyini bir daha nümayiş etdirdi. Səfər həm tarixi Zəfərin ortaq sevincinin bölüşülməsi, həm də iki dövlətin gələcək əməkdaşlığa dair mövqelərinin ifadəsi baxımından əhəmiyyət daşıdı.

Prezident İlham Əliyevin ***"Biz keçmişdə də bir yerdə olmuşuq, müharibə dövründə də bir yerdə idik, bu gün də bir yerdəyik və gələcəkdə də bir yerdə olacağıq"*** fikri Azərbaycan-Türkiyə münasibətlərinin dəyişməz mahiyyətini, tarixi davamlılığını və gələcəyə hesablanmış siyasi iradəsini ifadə edir. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın mərhum şairimiz Bəxtiyar Vahabzadənin məşhur misralarına müraciət etməsi, Azərbaycan Bayrağı ilə Türkiyə Bayrağının göylərdə yan-yana əbədi dalğalanmasını arzulaması isə bu birliyin mənəvi və rəmzi məzmununu tamamlayır.

Şuşada səslənən bəyanatların əsas mahiyyəti bundan ibarətdir: Azərbaycan və Türkiyə yalnız ortaq tarixə və mədəniyyətə malik iki qardaş dövlət deyil, həm də regional sabitlik, təhlükəsizlik, iqtisadi inkişaf və Türk dünyasının birliyi naminə ortaq məsuliyyət daşıyan strateji müttəfiqlərdir. Bu münasibətlərin gücü tarixi bağlılıqla yanaşı, həmin bağlılığı konkret siyasi qərarlara, iqtisadi layihələrə və qarşılıqlı dəstəyə çevirən liderlərin qətiyyətindən qaynaqlanır.

Şuşadan dünyaya verilən mesaj isə aydındır: Azərbaycan-Türkiyə birliyi keçmişin xatirəsi deyil, bu günün siyasi reallığı, gələcəyin strateji hədəflərini müəyyənləşdirən sarsılmaz qardaşlıqdır. Bu birlik zamanın sınaqlarından keçərək daha da möhkəmlənəcək, gələcək nəsillərə ötürülən əbədi mənəvi və siyasi miras olaraq qalacaqdır.

Nail ƏSGƏROV

Böyük Qayıdışın Zəngilan və Cəbrayıl səhifələri Cahangirbəyli və Soltanlıya qayıdış –

tarixi Zəfərin yaratdığı yeni reallığın növbəti təcəssümü

Prezident İlham Əliyevin uzaqgörən siyasəti və qətiyyətli mövqeyi sayəsində Azərbaycan son illərdə ölkəmizin gələcək inkişafına və tariximizə mühüm təsir göstərən hadisələrə şahidlik edib. Onların sırasında 44 günlük Vətən müharibəsində qazanılan tarixi Zəfər xüsusi yer tutur. Bu Qələbə Azərbaycanın ərazi bütövlüyünün bərpasını təmin etməklə yanaşı, uzun illər doğma yurdlarından ayrı düşmüş insanların geri qayıtmasına, işğal nəticəsində dağıdılmış şəhər və kəndlərimizin yenidən qurulmasına, həmin ərazilərdə həyatın bərpasına imkan yaradıb. Bu gün Qarabağda və Şərqi Zəngəzurda müşahidə olunan mənzərə tarixi Qələbənin təntənəsidir. Vaxtilə həyatın dayandığı, torpaqların viran qoyulduğu ərazilərdə müasir yaşayış məntəqələri salınır, sosial infrastruktur yaradılır, yollar çəkilir, məktəblər, uşaq bağçaları və digər ictimai obyektlər istifadəyə verilir. Ən başlıcası isə bu torpaqlara həyat qayıdır. İllərlə yurd həsrəti ilə yaşayan insanlar öz evlərinin qapısını yenidən açır, 30 il əvvəl sönən ocaqların işığı təzədən yanır.



Noyabrın 6-da Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın Zəngilan rayonunun Cahangirbəyli və Cəbrayıl rayonunun Soltanlı kəndlərinin birinci mərhələsinin açılışında iştirakı bu sakinlərlə görüşü Böyük Qayıdışın növbəti əlamətdar hadisəsi oldu. Həmin gün Zəngilan Şəhər Təhsil Kompleksinin istifadəyə verilməsi doğma torpaqlarına qayıdan ailələrin övladlarının keyfiyyətli təhsil alması üçün yaradılan şəraitin göstəricisidir. Müasir tədris imkanlarına malik kompleks gənc nəslin bilikli və savadlı yetişməsinə, onların bacarıqlarının inkişafına xidmət edəcək. Cəbrayıl rayonunda istifadəyə verilən – illik istehsal gücü 150 min ton olan, 70 milyon manat investisiya dəyərinə malik "Sunbeverage" MMC-nin alkoqolsuz içki istehsalı müəssisəsi isə quruculuq prosesinin iqtisadi inkişafla paralel aparıldığını göstərir. Burada 300 nəfərin daimi işlə təmin olunması, məhsulların daxili bazarla yanaşı, xarici ölkələrə də ixracının nəzərdə tutulması işğaldan azad edilmiş ərazilərdə yeni məşğulluq imkanlarının yaradılması baxımından əhəmiyyətlidir.

Dağıntılardan dirçəlişə: doğma yurdlarda yeni həyat

1993-cü ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunan Cahangirbəyli və Soltanlı kəndləri 30 il müddətində tamamilə dağıdılmışdı. İşğaldan əvvəl Cahangirbəyli sakinləri, əsasən, baramaçılıq, taxılçılıq, üzümçülük və heyvandarlıqla, Soltanlı sakinləri isə bunlarla yanaşı, pambıqçılıqla da, məşğul olublar. Azərbaycan Ordusu Soltanlı kəndini oktyabrın 19-da, Cahangirbəylini isə sonra oktyabrın 21-də işğaldan azad edib. Bu gün həmin yaşayış məntəqələrində sakinlərin rahatlığı üçün bütün zəruri imkanlara malik müasir evlər və sosial obyektlər istifadəyə verilir.

Ümumi sahəsi 179,5 hektar olan Cahangirbəyli kəndinin birinci mərhələsi üzrə 62,57 hektar ərazidə 242 fərdi yaşayış evi inşa edilib. Bununla yanaşı, 264 şagird yerlik tam orta məktəb, 80 yerlik körpələr evi-uşaq bağçası, ikimərtəbəli inzibati bina, bazar kompleksi və çoxfunksiyalı bina tikilib. Evlər su, elektrik enerjisi, qaz, günəş panelləri və yüksəksürətli internetlə təmin olunub, kənddaxili yollar asfaltlanıb.

Ümumi sahəsi 108,5 hektar olan Soltanlı kəndində isə 420 fərdi yaşayış evi inşa edilib. İki, üç, dörd və beşotaqlı evlərin hamısı müasir kommunikasiya sistemləri ilə təmin olunub. Kənddaxili yollar asfaltlanıb. Burada da ikimərtəbəli inzibati bina, 140 yerlik körpələr evi-uşaq bağçası, həkimtibb məntəqəsi və çoxfunksiyalı bina yaradılıb.

Cahangirbəyli məktəbində 13 sinif otağı, kimya və fizika laboratoriyaları, musiqi, informatika, hərbi hazırlıq, rəsm və qrim otaqları, kitabxana, 160 yerlik akt zalı, qapalı idman zalı və yeməkxana müəllim və şagirdlərin istifadəsinə veriləcək. Məktəbin ərazisində iki açıq idman meydançası da yaradılıb.

Kəndlərdə bayraq meydanlarının, parkların, uşaq oyun və idman meydançalarının yaradılması da yaşayış mühitinin yalnız mənzil təminatı ilə məhdudlaşmadığını göstərir. Məqsəd sakinlərin gündəlik ehtiyaclarını qarşılamaqla yanaşı, onların rahat istirahəti, sosial həyatda iştirakı və sağlam həyat tərzi üçün əlverişli şərait yaratmaqdır.

Beləliklə, işğaldan azad edilmiş ərazilərdə həyata keçirilən bərpa-quruculuq işləri dağıdılmış tikililərin yenidən inşasından daha geniş məna daşıyır.

Böyük Qayıdışın ən böyük mənası – doğma yurda, doğmalığa qayıtmaq

Cahangirbəyli və Soltanlı kəndlərinə köçən sakinlərlə görüşdə Prezident İlham Əliyevin çıxışı Böyük Qayıdışın mahiyyətini və dövlətimizin qarşıya qoyduğu məqsədləri bir daha ifadə etdi. Dövlətimizin başçısı vurğuladı ki, Azərbaycan xalqının ən böyük arzularından biri uzun illər ağır şəraitdə yaşamış məcburi köçkünlərin doğma torpaqlarına qayıtması olub. Bu gün isə həmin arzu real həyata çevrilir. Sitat: ***"Bu gün biz, demək olar ki, müntəzəm olaraq yeni gözəl kəndlər, şəhərlər salırıq, sıfırdan quruq. Çünki mənfur düşmən bizim bütün şəhər və kəndlərimizi yerləyeksan etmişdi, o cümlədən Cahangirbəyli, Soltanlı kəndlərini də tam dağıtmışdı. Bu gün bu iki kəndə, təqribən, 700-ə yaxın ailə qayıdır. Sizin üçün gözəl evlər tikilib. Əminəm ki, siz bu şəraitdən səmərəli şəkildə istifadə edəcəksiniz. Əsas məsələ odur ki, artıq köçkünlük həyatı arxada qalır".***

Şəhidlərin qanının yerdə qalmaması, onların qisasının döyüş meydanında alınması Azərbaycanın tarixi Zəfərinin mühüm mənəvi tərəfini təşkil edir. Bu gün Qarabağ və Şərqi Zəngəzurda aparılan bərpa işləri, yeni yaşayış məntəqələrinin salınması və həyatın yenidən canlandırılması isə Vətən uğrunda canından keçən qəhrəmanların xatirəsinə ehtiramın bariz nümunəsidir. Şəhid anasının Prezidentə müraciətində yaşamadıqları, hətta təsəvvürlərinə belə gətirə bilmədikləri bir möcüzənin gerçəkləşdiyini söyləməsi, başqa bir sakinin 33 ildən sonra doğma kəndinə qayıdışını möcüzə adlandırması Böyük Qayıdışın insan talelərindəki əhəmiyyətini göstərir. Sakinlərin fikirləri təsdiqləyir ki, bu proses, sadəcə, bir kəndə köçmək deyil. Bu, illərlə qorunan ümidin gerçəkləşməsi, ailə yaddaşının, nəsillərin bağlı olduğu torpağın yenidən həyatın mərkəzinə çevrilməsidir.

Qayıdışdan inkişafa: Qarabağ və Şərqi Zəngəzurda yeni mərhələ

Görüşün diqqətçəkən tərəflərindən biri də sakinlərin doğma yurda qayıtdıqdan sonra gələcək planları ilə bağlı fikirləridir. Prezident İlham Əliyevin kənd sakinləri ilə səmimi söhbəti zamanı onların əvvəlki məşğuliyyətləri, işğal dövründə yaşadıqları yerlər və bundan sonra hansı sahələrdə fəaliyyət göstərəcəkləri ilə maraqlanması qayıdış prosesində məşğulluq məsələsinin də mühüm yer tutduğunu göstərirdi.

Sakinlərin əksəriyyəti kənd təsərrüfatını yenidən dirçəltmək niyyətində olduqlarını bildirirdilər. Bir zamanlar traktorçu, sürücü, kolxoz işçisi kimi çalışan kənd sakinləri doğma torpaqlarında yenidən əkinçilik və heyvandarlıqla məşğul olmaq istəyirlər. Onların torpağın münbitliyinə, su ehtiyatlarına və kəndin gələcək inkişafına inamı diqqət çəkirdi. Bir sakinin torpaqlarını "qızıl torpaq" adlandırması, digərinin isə bir ildən sonra kəndin tanınmaz dərəcədə dəyişəcəyini, gül-çiçəyə bürünəcəyini bildirməsi sakinlərin quruculuq prosesində fəal iştirak etmək əzmini nümayiş etdirir.

Prezident İlham Əliyevin kənddə kənd təsərrüfatının inkişafı üçün geniş imkanların olduğunu vurğulaması, sakinlər üçün həyətyanı sahələrlə yanaşı, ayrıca torpaq sahələrinin də nəzərdə tutulduğunu qeyd etməsi bu istiqamətdə dövlət dəstəyinin əhəmiyyətini bir daha önə çıxarırdı.

Digər mühüm məsələ isə Zəngəzur dəhlizinin Soltanlı kəndinin ərazisindən keçməsi ilə bağlıdır. Dövlətimizin başçısı burada dəmir yolunun fəaliyyətə başlaması ilə böyük inkişaf perspektivlərinin yaranacağını diqqətə çatdırdı. Bu amil Soltanlının gələcəkdə yalnız yaşayış məntəqəsi kimi deyil, həm də nəqliyyat və iqtisadi əlaqələr baxımından əhəmiyyətli əraziyə çevrilməsi üçün yeni imkanlar yarada bilər.

Prezident İlham Əliyevin sakinlərlə söhbəti zamanı səsləndirdiyi ***"Bizim üzərimizə nə düşübsə, bu kənd üçün etmişik"*** fikri də bu baxımdan xüsusi məna daşıyır. Bu, dövlətin üzərinə götürdüyü quruculuq vəzifələrinin yerinə yetirildiyini, bundan sonrakı mərhələdə isə sakinlərin doğma yurdlarının inkişafında əsas iştirakçılara çevriləcəyini ifadə edir.

Cahangirbəyli və Soltanlıda həyatın yenidən canlanması bir daha təsdiqləyir ki, Azərbaycan üçün Zəfər yalnız tarixi Qələbənin qürurunu yaşatmaq deyil, həm də onun bəhrələrini quruculuq, dirçəliş və Böyük Qayıdışla gələcək nəsillərə ötürməkdir. Prezident İlham Əliyevin dediyi kimi: ***"Altı il bundan əvvəl şanlı Ordumuz düşməni torpaqlarımızdan qovaraq haqq-ədaləti bərpa etdi. Artıq 6 il ərzində biz quruculuq işləri ilə məşğuluq. Yeni salınan kəndlər, şəhərlər, köçkünlərin doğma torpaqlara qayıtması – yəni biz bu məsələlərlə məşğuluq və deyə bilərəm ki, bütün Azərbaycan xalqı bu fikirlə yaşayır".***

Nail ƏSGƏROV



Dublindən Bakıya uzanan siyasi dialoq

Azərbaycan-Avropa əməkdaşlığında yeni perspektivlər



Son illərdə beynəlxalq münasibətlər sistemində baş verən geosiyasi və geoiqtisadi dəyişikliklər dövlətlər arasında siyasi dialoqun, qarşılıqlı etimadın və çoxşaxəli əməkdaşlığın əhəmiyyətini daha da artırır. Xüsusilə Avropanın təhlükəsizliyi, enerji təminatı, nəqliyyat bağlantılarının genişləndirilməsi və iqtisadi rəqabət qabiliyyətinin gücləndirilməsi artıq ayrı-ayrı dövlətlərin deyil, bütövlükdə, beynəlxalq birliyin gündəliyində duran əsas məsələlərdəndir. Belə bir şəraitdə müxtəlif ölkələrin liderlərini bir araya gətirən beynəlxalq platformalar aktual problemlərin müzakirəsi və ortaq maraqların uzlaşdırılması baxımından mühüm siyasi məkan rolunu oynayır. Noyabrın 12-də İrlandiyanın paytaxtı Dublində işə başlayan "Avropa Siyasi Birliyi"nin 9-cu Zirvə Toplantısı da məhz bu baxımdan diqqət çəkir. 50-yə yaxın dövlət və hökumət başçısının iştirak etdiyi toplantıda Azərbaycanın da təmsil olunması ölkəmizin bu geniş siyasi dialoq platformasındakı rolunun əhəmiyyətini göstərir.

Onu da vurğulamaq yerinə düşər ki, "Avropa Siyasi Birliyi"nin növbəti Zirvə Toplantısının 2028-ci ilin may ayında Azərbaycanda keçirilməsi nəzərdə tutulur. Bu qərar ölkəmizin beynəlxalq siyasi dialoqda artan rolunun, Avropa dövlətləri ilə əməkdaşlıq imkanlarının və təşkilati potensialının göstəricisi kimi qiymətləndirilə bilər. Onlarla dövlət və hökumət başçısının, beynəlxalq təşkilatların nümayəndələrinin bir araya gələcəyi belə bir toplantıya ev sahibliyi etmək Azərbaycana Avropanın gələcəyi, təhlükəsizliyi, enerji təminatı və regional əməkdaşlıq kimi mühüm məsələlərin müzakirəsində geniş imkanlar yaradacaq.

Azərbaycan-Avropa münasibətlərində enerji və nəqliyyat-logistika amilləri

Azərbaycanla Avropa İttifaqı arasında münasibətlər uzun illərdir, siyasi dialoq, iqtisadi əməkdaşlıq, enerji təhlükəsizliyi, nəqliyyat və humanitar əlaqələr istiqamətində inkişaf edir. Bu münasibətlərdə enerji sahəsi xüsusi yer tutur. Azərbaycan Avropanın enerji təchizatının şaxələndirilməsində mühüm rol oynayır, Xəzər hövzəsinin enerji resurslarını Avropa bazarına çatdıran etibarlı tərəfdaşlardan biri kimi çıxış edir. 2022-ci ildə Azərbaycanla Avropa Komissiyası arasında enerji sahəsində strateji tərəfdaşlığa dair Anlaşma Memorandumunun imzalanması əməkdaşlığın yeni mərhələsinin əsasını qoyub. Sənədə əsasən tərəflər Avropaya qaz tədarükünün artırılması və enerji təhlükəsizliyinin gücləndirilməsi istiqamətində əməkdaşlığı genişləndirməyi qarşıya məqsəd qoyublar.

Rəqəmlər də Azərbaycanın bu sahədəki mövqeyini aydın göstərir. 2025-ci ildə ölkəmizdə 51,5 milyard kubmetr təbii qaz hasil edilib, ixracın həcmi isə 25,2 milyard kubmetr təşkil edib. Bunun 12,8 milyard kubmetri Avropaya, 9,6 milyard kubmetri Türkiyəyə, 2,3 milyard kubmetri Gürcüstana, 0,5 milyard kubmetri isə Suriyaya göndərilib. 2026-cı ilin yanvar-sentyabr aylarında Azərbaycanın ümumi qaz ixracı 18,4 milyard kubmetr olub. Bu həcmin 8,6 milyard kubmetri Avropanın payına düşüb. Ölkəmizin qaz tədarük etdiyi dövlətlərin sayının 16-ya çatması, onlardan 10-nun Avropa İttifaqının üzvü olması Azərbaycanın enerji tərəfdaşlığının coğrafiyasını əks etdirir. Bu ilin əvvəlindən Almaniya və Avstriya bazarlarına Azərbaycan qazının nəqlinə başlanılması da ixrac istiqamətlərinin genişlənməsinin göstəricisidir.

Bu göstəricilər Azərbaycanın Avropanın enerji təhlükəsizliyinə verdiyi töhfəni göstərməklə yanaşı, ölkəmizin beynəlxalq enerji bazarındakı mövqeyinin möhkəmləndiyini də təsdiqləyir. Xüsusilə enerji mənbələrinin və təchizat marşrutlarının şaxələndirilməsinə ehtiyacın artdığı bir dövrdə Azərbaycanla əməkdaşlıq Avropa üçün strateji əhəmiyyət daşıyır. Digər tərəfdən ölkəmizin bərpa olunan enerji sahəsindəki potensialı da Avropa ilə əməkdaşlığın yeni istiqamətlərini müəyyənləşdirir. Xəzər dənizinin külək enerjisi imkanları, günəş enerjisi layihələri və gələcəkdə "yaşıl enerji"nin ixracı perspektivləri Azərbaycanla Avropa arasında enerji tərəfdaşlığını daha geniş məzmunla zənginləşdirir.

Azərbaycanın əlverişli coğrafi mövqeyi və malik olduğu infrastruktur potensialı Avropa ilə Asiya arasında nəqliyyat-logistika əlaqələrinin inkişafı üçün geniş imkanlar yaradır. Şərq-Qərb və Şimal-Cənub Nəqliyyat dəhlizlərinin ölkəmizin ərazisindən keçməsi, müasir liman, dəmir yolu və avtomobil infrastrukturlarının inkişafı Azərbaycanın regional və beynəlxalq logistika sistemindəki rolunu artırır. Xüsusilə Orta Dəhliz son illərdə beynəlxalq ticarət və yükdaşımalar baxımından daha çox diqqət cəlb edir. Çin və Mərkəzi Asiyadan başlayaraq Xəzər dənizi, Azərbaycan, Gürcüstan və Türkiyə üzərindən Avropaya uzanan bu marşrut alternativ nəqliyyat bağlantılarının formalaşmasına xidmət edir.

Prezident İlham Əliyevin Dublin görüşləri: sülh, tərəfdaşlıq və iqtisadi əməkdaşlıq

Dublində keçirilən Zirvə Toplantısı dövlət və hökumət başçılarına ümumi məsələləri müzakirə etməklə yanaşı, qarşılıqlı maraqdoğuran istiqamətlər üzrə mövqeləri yaxınlaşdırmaq və gələcək əməkdaşlığın perspektivlərini dəyərləndirmək imkanı yaradır. Geosiyasi gərginliklərin, enerji və nəqliyyat marşrutları ətrafında rəqabətin, qlobal iqtisadi çağırışların artdığı bir dövrdə bu cür dialoq formatlarının əhəmiyyəti daha da yüksəlir. Bu baxımdan, Zirvə Toplantısı çərçivəsində Prezident İlham Əliyevin keçirdiyi ikitərəfli görüşlər də səfərin siyasi əhəmiyyətini artıran mühüm məqamlardandır.

Dövlətimizin başçısının noyabrın 12-də bir sıra dövlət və hökumət başçıları, eləcə də Avropa İttifaqı Şurasının Prezidenti ilə keçirdiyi görüşlər Azərbaycanın Avropa ilə münasibətlərinin çoxşaxəli xarakterini bir daha nümayiş etdirdi. Ukrayna, Moldova, Bolqarıstan, Ermənistan, Yunanıstan, Çexiya, Rumıniya, Litva və Böyük Britaniyanın rəhbərləri ilə təmaslar siyasi dialoqun genişləndirilməsi, iqtisadi tərəfdaşlığın möhkəmləndirilməsi və yeni əməkdaşlıq istiqamətlərinin müəyyənləşdirilməsi baxımından diqqət çəkdi.

Görüşlərin ümumi mənzərəsi göstərir ki, Azərbaycan-Avropa münasibətləri artıq yalnız enerji əməkdaşlığı ilə məhdudlaşmır. Nəqliyyat bağlantıları, investisiya, sənaye, bərpa olunan enerji, humanitar əlaqələr və regional təhlükəsizlik məsələləri də tərəfdaşlığın mühüm istiqamətlərinə çevrilir. Xüsusilə Moldova, Ukrayna, Bolqarıstan, Yunanıstan və Rumıniya ilə keçirilən görüşlər Azərbaycanın Avropanın enerji təhlükəsizliyindəki rolunun müxtəlif istiqamətlərdə genişləndiyini ortaya qoyur. Azərbaycanın Moldovanın enerji təhlükəsizliyinə dəstəyi, Ukraynaya humanitar yardım çərçivəsində elektrik avadanlıqlarının təchizatı, Bolqarıstanla enerji dəhlizləri, Yunanıstanla TAP layihəsi və Rumıniya ilə Xəzər-Qara dəniz bağlantılarının inkişafı bu əməkdaşlığın konkret təzahürləridir.

Çexiya və Böyük Britaniya ilə görüşlər isə iqtisadi və investisiya əməkdaşlığının perspektivləri baxımından xüsusi əhəmiyyət daşıyır. Azərbaycanın Çexiyanın ən iri neft təchizatçısı olması mövcud enerji tərəfdaşlığının miqyasını göstərir. Böyük Britaniya ilə Strateji Tərəfdaşlıq haqqında Birgə Bəyannamənin mübadiləsi isə ikitərəfli münasibətlərin gələcək inkişafı üçün yeni siyasi çərçivə yaradır. Enerji sahəsində 30 ildən artıq davam edən əməkdaşlıqla yanaşı, bərpa olunan enerji, yüksək texnologiyalar və süni intellekt sahələrində yeni imkanların müzakirəsi tərəfdaşlığın gələcək gündəliyini daha da zənginləşdirir.

Litva ilə təmaslar Azərbaycanın Baltikyanı ölkələrlə əlaqələrinin genişləndirilməsi, iqtisadi və enerji əməkdaşlığının yeni imkanlarının dəyərləndirilməsi baxımından əhəmiyyətlidir. Avropa İttifaqı Şurasının Prezidenti Antonio Koşta ilə görüş isə Azərbaycan-Avropa İttifaqı münasibətlərinin ümumi gündəliyinin müzakirəsi üçün mühüm platforma olub. Azərbaycanın ittifaqın 10 üzv dövlətinə qaz ixrac etməsi, bərpa olunan enerji layihələri, Orta Dəhliz və Naxçıvan dəmir yolu bağlantısı ətrafında aparılan müzakirələr ölkəmizin Avropa ilə əməkdaşlığının enerji və nəqliyyat istiqamətlərini paralel şəkildə əhatə etdiyini göstərir.

Dublindəki görüşlərin digər mühüm istiqaməti Azərbaycan-Ermənistan münasibətləri və regional sülh prosesi olub. Prezident İlham Əliyev və Baş nazir Nikol Paşinyan arasında keçirilən görüşdə Vaşinqtonda əldə olunmuş razılaşmaların davamı olaraq sülh gündəliyinin irəlilədilməsi, sərhədlərin delimitasiyası, tranzit əlaqələri və iqtisadi əməkdaşlıq məsələləri müzakirə edilib. TRIPP layihəsinin inkişaf perspektivləri, eləcə də Azərbaycan ərazisindən Ermənistana 105 min ton yükün daşınması regionda praktiki əməkdaşlığın formalaşması baxımından diqqətəlayiq məqamlardır. Bu təmaslar sülh prosesinin yalnız siyasi dialoqla deyil, iqtisadi və nəqliyyat əlaqələrinin inkişafı ilə də möhkəmləndirilməsinin əhəmiyyətini göstərir.

Prezident İlham Əliyevin "Rəqabətqabiliyyətli Avropanın yaradılması – innovasiya, bağlantılar və əlçatan enerji" mövzusunda dəyirmi masada iştirakı da Azərbaycanın Avropanın gələcək enerji və iqtisadi arxitekturasındakı rolunun müzakirəsi baxımından əhəmiyyətli olub. Dövlətimizin başçısının diqqətə çatdırdığı kimi, 2022-ci ildə Azərbaycan-Avropa İttifaqı enerji tərəfdaşlığına dair Anlaşma Memorandumunun imzalanmasından sonra Avropaya qaz təchizatı 8 milyard kubmetrdən 13 milyard kubmetrə yüksəlib. Bu göstərici Azərbaycanın Avropanın enerji təhlükəsizliyinə verdiyi töhfənin artdığını təsdiqləyir. Eyni zamanda mövcud boru kəməri infrastrukturunun genişləndirilməsi, alternativ enerji imkanları və yeni nəqliyyat bağlantıları gələcək əməkdaşlıq gündəliyində mühüm yer tutur. Bütün bunlar ölkəmizin Avropa üçün yalnız enerji təchizatçısı deyil, həm də regional nəqliyyat və logistika əlaqələrinin inkişafında iştirak edən etibarlı tərəfdaş kimi əhəmiyyətini artırır.

Ümumilikdə, Dublində keçirilən görüşlər Azərbaycanın Avropa ilə münasibətlərində siyasi dialoqun, iqtisadi əməkdaşlığın və regional tərəfdaşlığın paralel şəkildə inkişaf etdiyini göstərir. Böyük Britaniya ilə strateji tərəfdaşlığın yeni sənədlə möhkəmləndirilməsi, Avropa İttifaqı ilə enerji və nəqliyyat məsələlərinin müzakirəsi, ayrı-ayrı Avropa dövlətləri ilə iqtisadi əlaqələrin genişləndirilməsi, Ermənistanla sülh gündəliyinin davam etdirilməsi bu təmasların əsas məqamlarını təşkil edir.

Dublində keçirilən "Avropa Siyasi Birliyi"nin 9-cu Zirvə Toplantısı Azərbaycanın Avropa ilə münasibətlərində siyasi dialoqun dərinləşdirilməsi, enerji və nəqliyyat sahələrində əməkdaşlığın genişləndirilməsi, eləcə də regional təhlükəsizlik məsələlərinin müzakirəsi baxımından mühüm əhəmiyyət daşıyır. Prezident İlham Əliyevin toplantıda iştirakı, bir sıra dövlət və hökumət başçıları ilə keçirdiyi görüşlər, dəyirmi masada səsləndirdiyi fikirlər, həmçinin Azərbaycanın 2028-ci ildə növbəti Zirvə Toplantısına ev sahibliyi edəcək olması ölkəmizin bu platformadakı rolunu daha da ön plana çıxarır. Bütün bunlar Azərbaycanın Avropa ilə Asiya arasında etibarlı enerji və nəqliyyat bağlantılarının qurulmasına, beynəlxalq əməkdaşlığın genişləndirilməsinə verdiyi töhfənin göstəricisidir. Dublindən Bakıya uzanan siyasi dialoq isə ölkəmizin beynəlxalq münasibətlər sistemində fəal iştirakının, Avropa ilə tərəfdaşlığının və qarşılıqlı maraqlara əsaslanan əməkdaşlığın yeni perspektivlərinin ifadəsidir.

Nail ƏSGƏROV

Prezident İlham Əliyevin iqlim diplomatiyası – gələcəyə hesablanmış siyasət



Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən iqlim diplomatiyası Azərbaycanın qlobal ekoloji gündəmdəki rolunu gücləndirən, eyni zamanda ölkənin geoiqtisadi və milli maraqlarını uzunmüddətli perspektivlə uzlaşdıran strateji siyasət istiqamətidir. Məhz bu siyasətin nəticəsidir ki, Azərbaycan dünyada mühüm enerji layihələrinin təşəbbüskarı və fəal iştirakçısı kimi tanınmaqla yanaşı, qlobal çağırışlara qoşulan, bəşəriyyətin mənafeyinə xidmət edən təşəbbüsləri dəstəkləyən dövlət mövqeyi qazanıb.

Ölkəmiz 1995-ci ildə BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasını ratifikasiya etdikdən sonra qlobal iqlim dəyişmələrinin mənfi təsirlərinin azaldılması istiqamətində beynəlxalq səylərə qoşulub, 2000-ci ildə isə Konvensiyanın əlavə sənədi olan Kioto Protokoluna tərəfdar çıxıb. Həmin vaxtdan Azərbaycan iqlim dəyişmələrinə qarşı mübarizədə həm beynəlxalq əməkdaşlıq, həm də milli səviyyədə həyata keçirilən qabaqlayıcı tədbirlər vasitəsilə fəal iştirak edir.

Son illərdə bu istiqamətdə görülən işlərin mühüm tərkib hissəsini Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 2 fevral tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" təşkil edir. Beş əsas prioritetdən biri məhz "Təmiz ətraf mühit və yaşıl artım ölkəsi" kimi müəyyənləşdirilib. Bununla yanaşı, qlobal iqlim mübarizəsində beynəlxalq həmrəyliyin gücləndirilməsi məqsədilə Prezident İlham Əliyevin 2023-cü il 25 dekabr tarixli Sərəncamı ilə 2024-cü il ölkəmizdə "Yaşıl dünya naminə həmrəylik ili" elan olunub.

Azərbaycan 1990-cı ili baza ili kimi götürərək 2030-cu ilədək istixana qazı emissiyalarının 35 faiz, 2050-ci ilədək isə 40 faiz azaldılmasını hədəfləyir. Eyni zamanda elektrik enerjisi istehsalının qoyuluş gücündə bərpa olunan enerji mənbələrinin payının 2030-cu ilədək 30 faizə çatdırılması nəzərdə tutulur. Ümumilikdə, Azərbaycanın enerji siyasətinin prioritet istiqamətlərindən birini "yaşıl enerji" istehsalının genişləndirilməsi və onun dünya bazarlarına nəqli təşkil edir.

Ölkəmiz torpaqlarını 30 ilə yaxın davam edən işğaldan azad etdikdən sonra Qarabağ və Şərqi Zəngəzurda da bu istiqamətdə genişmiqyaslı layihələrin həyata keçirilməsinə başlayıb. Prezident İlham Əliyev həmin əraziləri, eləcə də Naxçıvan Muxtar Respublikasını "yaşıl enerji zonası" elan edib. Bu ərazilərin 2050-ci ilədək "Netto sıfır emissiya" zonasına çevrilməsi nəzərdə tutulur. Bütün bunlar Azərbaycanın ekoloji tarazlığın qorunmasına, enerji təhlükəsizliyinin möhkəmləndirilməsinə və dayanıqlı inkişafın təmin olunmasına kompleks yanaşmasının göstəricisidir.

Azərbaycanın qlobal iqlim gündəliyinə verdiyi töhfələrin ən mühüm nümunələrindən biri isə 2024-cü ildə BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına – COP29-a ev sahibliyi etməsi olub. Bu mötəbər tədbir ölkəmizin beynəlxalq nüfuzunun, təşkilatçılıq imkanlarının və iqlim diplomatiyası sahəsində artan rolunun nümayişinə çevrilib. COP29 Azərbaycanın tarixində keçirilmiş ən böyük beynəlxalq tədbir kimi yadda qalıb.

Azərbaycanın bu sahədə formalaşdırdığı siyasi və diplomatik xətt növbəti beynəlxalq platformalarda da davam etdirilir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın dəvəti ilə BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 31-ci sessiyasının (COP31) Liderlər Sammitində iştirak etmək məqsədilə noyabrın 10-da Türkiyəyə səfər edib.

Dövlət başçısının Antalya şəhərində keçirilən Liderlər Sammitində iştirakı xüsusi əhəmiyyət daşıyır. Bu iştirak Bakı və Antalya iqlim sammitləri arasında siyasi və diplomatik varisliyin qorunduğunu, Azərbaycanın beynəlxalq iqlim dialoqunda fəal mövqeyini davam etdirdiyini nümayiş etdirir. Eyni zamanda tədbir Azərbaycanın "yaşıl enerji" sahəsində əldə etdiyi milli nailiyyətlərin beynəlxalq ictimaiyyətə təqdim olunması üçün mühüm platformadır. COP31 çərçivəsində formalaşan imkanlar COP29-un diplomatik və iqlim irsinin davam etdirilməsi, eləcə də Türkiyə, Cənubi Qafqaz və Mərkəzi Asiyanı birləşdirən regional enerji arxitekturasının formalaşmasında Azərbaycanın rolunun gücləndirilməsi baxımından əhəmiyyətlidir.

Azərbaycan konfransda "Dialoq Dəhlizi" konsepsiyası əsasında hazırlanmış milli pavilyonla təmsil olunur. Pavilyonda 40-dan çox tədbirin və ikitərəfli görüşün keçirilməsi nəzərdə tutulub. Burada ölkəmizin bərpa olunan enerji potensialı, "yaşıl enerji" dəhlizləri, Qarabağ və Şərqi Zəngəzurda həyata keçirilən "yaşıl enerji" təşəbbüsləri, "Abşeron" enerji saxlanc sistemi, eləcə də Xəzər dənizinin biomüxtəlifliyinin qorunmasına yönəlmiş layihələr nümayiş etdirilir.


Konfrans çərçivəsində Azərbaycan, Braziliya, Türkiyə və Avstraliyanın birgə hazırladığı "Belém Missiyası – 1,5°C" hesabatı da ictimaiyyətə təqdim olunub. Hesabatın əsas məqsədi Paris Sazişi çərçivəsində qlobal temperatur artımının 1,5°C ilə məhdudlaşdırılması istiqamətində ölkələrin iqlim öhdəliklərinin və milli adaptasiya planlarının həyata keçirilməsinə dəstək verməkdir. Sənəddə enerji, sənaye, kənd təsərrüfatı, meşələr, okeanlar, səhiyyə və şəhərsalma kimi sahələrdə istixana qazı emissiyalarının azaldılması, iqlim dəyişmələrinin təsirlərinə qarşı dayanıqlılığın artırılması və yeni iqtisadi imkanların yaradılması üçün mövcud həll yolları əksini tapıb. Hesabatın rəsmi təqdimatının noyabrın 16-da COP31 çərçivəsində Antalyada keçiriləcək yüksəksəviyyəli tədbirdə təşkili nəzərdə tutulur.

Bütün bunlar bir daha göstərir ki, Prezident İlham Əliyevin həyata keçirdiyi iqlim diplomatiyası Azərbaycanın beynəlxalq münasibətlər sistemindəki mövqeyini yeni müstəviyə yüksəldib. Ölkəmiz qlobal iqlim müzakirələrində sadəcə iştirakçı deyil, inkişaf etmiş və inkişaf etməkdə olan dövlətlər arasında dialoqun qurulmasına, ortaq maraqların uzlaşdırılmasına töhfə verən fəal tərəfdaş kimi çıxış edir. Azərbaycanın bu istiqamətdə atdığı addımlar ekoloji məsuliyyətlə yanaşı, enerji təhlükəsizliyi, iqtisadi inkişaf və regional əməkdaşlıq baxımından da strateji əhəmiyyət daşıyır.

Beləliklə, Prezident İlham Əliyevin iqlim diplomatiyası yalnız bugünkü ekoloji çağırışlara cavab verən siyasət deyil, həm də Azərbaycanın gələcək inkişafına, beynəlxalq mövqeyinin möhkəmləndirilməsinə və yeni əməkdaşlıq imkanlarının yaradılmasına hesablanmış uzaqgörən strategiyadır.

Ramiyə ƏKBƏROVA





Birinci vitse-prezident Mehriban Əliyeva Zəfər Günü ilə bağlı paylaşım edib

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva rəsmi instaqram hesabında Zəfər Günü ilə bağlı paylaşım edib.

Paylaşımda deyilir: "Bu gün biz böyük qürurla Zəfər Gününü qeyd edirik! Biz Prezidentimizə, cəsarətli əsgərlərimizə, zabitlərimizə və veteranlarımıza hədsiz dərəcədə minnətdarıq! Qəhrəmanlığınıza, şücaətinizə, cəsarətinizə, dözümlülüyünüzə görə, bugünkü bayramı müzəffər xalq kimi qeyd etdiyimizə görə çox sağ olun!

Vətən uğrunda həlak olmuş qəhrəman oğullarımızın nurlu xatirəsini ehtiramla yad edir, onların doğma və yaxınlarına səbir arzulayıram! Qoy Azərbaycanda həmişə sülh və əmin-amanlıq hökm sürsün!

Dərin hörmət və sevgilərlə, Sizin MEHRİBAN".

Birinci vitse-prezident Mehriban Əliyeva Bayraq Günü ilə bağlı paylaşım edib

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva rəsmi instaqram hesabında 9 Noyabr – Bayraq Günü ilə bağlı paylaşım edib.

Paylaşımda deyilir: "Qoy sonsuz qürur mənbəyimiz olan üçrəngli bayrağımız hər zaman müstəqilliyimizin əbədiliyinin, xalqımızın birliyinin və dövlətimizin qüdrətinin təcəssümü olsun!"



Azərbaycanın və Türkiyənin birinci xanımları çay süfrəsi arxasında söhbət ediblər



Noyabrın 8-də Azərbaycan Respublikasının birinci xanımı Mehriban Əliyeva və qızı Leyla Əliyeva Türkiyə Respublikasının birinci xanımı Əminə Ərdoğan ilə çay süfrəsi arxasında söhbət ediblər.

Birinci vitse-prezident Mehriban Əliyeva sosial media hesabında paylaşım edib

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva sosial media hesabında Hacıqabul rayonu ərazisində, Bakı yolunda çəkilmiş göy qurşağının görüntülərini əks etdirən paylaşım edib.

Paylaşımda deyilir: "Hacıqabul rayonu, Bakı yolunda. Təbii Zəfər Tağı. 9.11.26".

Birinci vitse-prezident Mehriban Əliyeva Konstitusiya Günü ilə bağlı paylaşım edib


Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva 12 Noyabr – Konstitusiya Günü münasibətilə sosial şəbəkə hesablarında foto paylaşıb.



Səlahiyyətli nümayəndəliyin kollektivi Zəfər Abidəsini ziyarət edib



Noyabrın 8-də Zəfər Günü münasibətilə Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Ceyhun Cəlilov və nümayəndəliyin kollektivi Naxçıvan şəhərində yerləşən Zəfər Abidəsini ziyarət ediblər. Abidə önünə gül dəstələri qoyulub, Vətənimizin ərazi bütövlüyü və suverenliyi uğrunda canlarından keçən şəhidlərimizin əziz xatirəsi dərin ehtiramla yad edilib.





Bir millətin inam andı: dövlətin hüquqi təməli

Müstəqil Azərbaycan Respublikasının varlığını, xalqımızın azadlıq iradəsini və dövlət suverenliyini hüquqi müstəvidə təsbit edən Azərbaycan Respublikasının Konstitusiyası Ümummilli Lider Heydər Əliyevin siyasi fəaliyyətinin ən mühüm tarixi nailiyyətlərindən biri kimi xüsusi əhəmiyyət daşıyır. Ötən əsrin 90-cı illərinin əvvəllərində ölkəni bürüyən siyasi anarxiya, dərin iqtisadi böhran və dövlət idarəçiliyində hökm sürən xaos Azərbaycanın dövlət müstəqilliyini ciddi təhlükə ilə üz-üzə qoymuşdu. Belə mürəkkəb və taleyüklü şəraitdə xalqın təkidli tələbi ilə Heydər Əliyevin yenidən siyasi hakimiyyətə qayıdışı ölkənin ictimai-siyasi həyatında yeni mərhələnin başlanğıcını qoydu. Bu prosesin ən mühüm nəticələrindən biri müstəqil dövlətimizin ilk milli Konstitusiyasının qəbul edilməsi oldu.

1993-cü ildə yenidən siyasi hakimiyyətə qayıdan Heydər Əliyev uzaqgörən siyasəti və taleyüklü qərarları ilə milli dövlətçilik ideyasının gerçəkləşməsinə, müasir və müstəqil Azərbaycan dövlətinin qurulmasına misilsiz töhfələr verdi. Onun rəhbərliyi ilə ölkəmiz yeni inkişaf mərhələsinə qədəm qoydu. Ulu Öndər, ilk növbədə, siyasi sabitliyin bərqərar edilməsinə, iqtisadi siyasətin əsas istiqamətlərinin müəyyənləşdirilməsinə, dövlət idarəçiliyinin təkmilləşdirilməsinə və qanunvericilik bazasının yaradılmasına diqqət yetirdi.

Həmin dövrdə mövcud olan hüquq sistemi və qanunvericilik bazası demokratik cəmiyyət quruculuğu, qanunun aliliyinin təmin edilməsi, insan və vətəndaş hüquq və azadlıqlarının müdafiəsi baxımından dövrün tələblərinə cavab vermirdi. Bu səbəbdən demokratik prinsiplərə və ümumbəşəri dəyərlərə əsaslanan yeni milli qanunvericilik sisteminin formalaşdırılması zərurəti yaranmışdı. Qarşıda duran ən mühüm vəzifələrdən biri müstəqil Azərbaycanın yeni Konstitusiyasının hazırlanması və qəbul edilməsi idi.

Yeni Konstitusiya layihəsinin hazırlanması məqsədilə Ümummilli Lider Heydər Əliyev tərəfindən məqsədyönlü tədbirlər həyata keçirildi. Milli Məclisin 1995-ci il 2 may tarixli Qərarı ilə Azərbaycan Respublikasının yeni Konstitusiya layihəsini hazırlayan komissiyanın tərkibi təsdiq edildi. Komissiyaya şəxsən Heydər Əliyev sədrlik edirdi. Onun tərkibinə qanunvericilik, icra və məhkəmə hakimiyyəti orqanlarının nümayəndələri ilə yanaşı, tanınmış ictimai-siyasi xadimlər, alimlər, hüquqşünaslar, tarixçilər və dilçilər də daxil edilmişdi. Ulu Öndər komissiyanın fəaliyyətinə bilavasitə rəhbərlik edir, layihənin hər bir müddəası ilə maraqlanır, tövsiyələrini bildirirdi.

Yeni Konstitusiya layihəsini hazırlayan komissiyanın ilk iclası 1995-ci il iyunun 5-də keçirildi. İclasda çıxış edən Ulu Öndər Azərbaycanın konstitusiya quruculuğu tarixinə nəzər salaraq yeni Əsas Qanunun hazırlanmasının ölkənin siyasi və hüquqi tarixində müstəsna əhəmiyyət daşıdığını vurğuladı. Ulu Öndər tarixi irsi ilə müasir demokratik təcrübənin uzlaşdırılmasının vacibliyini qeyd edərək bildirmişdi: ***"Konstitusiya yaratmaq üçün şübhəsiz ki, tarixi keçmişimizə nəzər salmalıyıq, amma eyni zamanda ümumbəşəri dəyərlərdən, dünyanın demokratik dövlətlərinin əldə etdiyi nailiyyətlərdən, təcrübədən istifadə etməliyik, bəhrələnməliyik".***

Ümummilli Lider Heydər Əliyev həmin çıxışında Konstitusiyanın əsas funksiyasını da aydın şəkildə ifadə etmişdi. Onun fikrincə, Əsas Qanun dövlətlə xalq arasında münasibətləri tənzimləməli, hakimiyyətin bütün qollarının xalqın iradəsinə əsaslanmasını təmin etməli idi. Ulu Öndər bu prinsipi belə ifadə etmişdi: ***"Konstitusiya birinci növbədə dövlətlə, hakimiyyətlə xalqın arasında olan münasibətləri özündə əks etdirməlidir. Hakimiyyət bölgüsü, ali icra, qanunvericilik, məhkəmə hakimiyyətləri – bunlar hamısı xalqın iradəsinə söykənməli, seçkilər yolu ilə təmin olunmalıdır".***

1995-ci il oktyabrın 3-də keçirilən növbəti iclasda Heydər Əliyev yeni Konstitusiyanın təməl prinsiplərini bir daha diqqətə çatdırdı. Ulu Öndər qeyd edirdi ki, Əsas Qanunda Azərbaycanın dövlət müstəqilliyi, onun qorunub saxlanılması və gələcək nəsillərə ötürülməsi ilə bağlı fundamental müddəalar öz əksini tapmalıdır. Yeni Konstitusiya demokratik dəyərlərə əsaslanmalı, inkişaf etmiş dövlətlərin konstitusiya təcrübəsi ilə yanaşı, Azərbaycanın tarixi irsini və milli xüsusiyyətlərini də ehtiva etməlidir.

Hər bir demokratik dövlətdə hakimiyyətin yeganə mənbəyi xalqdır. Təsadüfi deyil ki, Azərbaycan Respublikası Konstitusiyasının 1-ci maddəsində dövlət hakimiyyətinin yeganə mənbəyinin Azərbaycan xalqı olduğu təsbit edilib. Əsas Qanuna görə, xalq öz müqəddəratını sərbəst və müstəqil şəkildə müəyyən etmək, idarəetmə formasını seçmək hüququna malikdir.

1995-ci ilin12-i noyabrı dövlətçilik tariximizin ən əlamətdar səhifələrindən biri kimi yadda qaldı. Həmin gün ümumxalq səsverməsi – referendum yolu ilə müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyası qəbul edildi. Bu tarixi hadisə demokratik, hüquqi və dünyəvi dövlət quruculuğunun möhkəm təməlinin yaradılması baxımından mühüm mərhələ oldu.

Ulu Öndərin müəyyənləşdirdiyi dövlətçilik strategiyasının Prezident İlham Əliyev tərəfindən müasir dövrün çağırışlarına uyğun davam etdirilməsi Azərbaycanın suveren və güclü dövlət kimi inkişafının mühüm amillərindəndir. Prezident İlham Əliyevin 2024-cü il 28 dekabr tarixli Sərəncamı ilə 2025-ci ilin ölkəmizdə "Konstitusiya və Suverenlik İli" elan edilməsi də xüsusi əhəmiyyət kəsb edir. Bu Sərəncam dövlət müstəqilliyinin və suverenliyin möhkəmləndirilməsi, milli-mənəvi dəyərlərin qorunması, həmrəylik, humanizm, ədalət və qanunun aliliyi prinsiplərinə əsaslanan cəmiyyət quruculuğunun məntiqi davamı kimi dəyərləndirilə bilər.

Azərbaycan Respublikasının Konstitusiyası dövlət idarəçiliyinin hüquqi əsaslarını müəyyənləşdirməklə yanaşı, insan və vətəndaş hüquq və azadlıqlarının qorunmasının ali təminatçısıdır. Əsas Qanunda hər kəsin qanun qarşısında bərabərliyi, fikir və söz azadlığı, mülkiyyət hüququ, vicdan azadlığı və digər fundamental hüquqlar təsbit edilib. Bu baxımdan, Konstitusiya hər bir vətəndaşın hüquq və azadlıqlarının müdafiəsinə xidmət edən ali hüquqi təminatdır. Onun əsas mahiyyəti dövlət səlahiyyətlərinin qanun çərçivəsində həyata keçirilməsini təmin etməkdən ibarətdir.

Zamanın dəyişən tələbləri, ictimai-siyasi və iqtisadi münasibətlərin inkişafı, dövlət idarəçiliyinin təkmilləşdirilməsi zərurəti Konstitusiyaya əlavə və dəyişikliklərin edilməsini də gündəmə gətirib. Bu məqsədlə 2002, 2009 və 2016-cı illərdə ümumxalq referendumları keçirilib, Əsas Qanuna müvafiq dəyişikliklər edilib. Həmin dəyişikliklər dövlət idarəçiliyinin təkmilləşdirilməsi və hüquq sisteminin inkişafı baxımından mühüm əhəmiyyət daşıyıb.

Sevindirici haldır ki, Konstitusiyada təsbit olunmuş dövlət müstəqilliyi, suverenlik və ərazi bütövlüyü prinsipləri Azərbaycanın sonrakı tarixi inkişafında da öz təsdiqini tapıb. 2020-ci ildə Vətən müharibəsində qazanılan tarixi Zəfər və 2023-cü ilin sentyabrında həyata keçirilən antiterror tədbirləri nəticəsində ölkəmizin bütün ərazilərində suverenliyin bərpa edilməsi Azərbaycan dövlətçilik tarixində yeni mərhələnin başlanğıcını qoyub.

Bu gün Azərbaycan dövlətçiliyinin möhkəmləndirilməsi, hüquqi dövlət quruculuğunun davam etdirilməsi və demokratik dəyərlərin cəmiyyətdə möhkəmlənməsi hər bir vətəndaşın üzərinə mühüm məsuliyyət qoyur. Azərbaycan Respublikasının Konstitusiyası bir millətin inam andı, müstəqil dövlətimizin sarsılmaz hüquqi təməlidir. Ona hörmət və sədaqət isə dövlət müstəqilliyimizin qorunmasına, suverenliyimizin möhkəmləndirilməsinə və Azərbaycanın gələcək inkişafına xidmət edən ən mühüm vətəndaşlıq mövqeyidir.

✍ **Məcid RƏŞADƏTOĞLU**

Konstitusiyamız və suveren Azərbaycan: milli dövlətçiliyin hüquqi təməli, tarixi Zəfərin siyasi reallığı



Bəhruz MƏMMƏDOV
Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı

Hər bir müstəqil dövlətin siyasi və hüquqi dayaqlarını, idarəçilik prinsiplərini, cəmiyyətin inkişaf istiqamətlərini, vətəndaşların hüquq və azadlıqlarını müəyyən edən ali hüquqi sənəd onun Konstitusiyasıdır. Konstitusiya yalnız dövlət idarəçiliyinin hüquqi mexanizmlərini müəyyənləşdirən sənəd deyil, həm də xalqın iradəsini, milli dövlətçilik ənənələrini, suverenlik düşüncəsini və gələcək inkişaf hədəflərini özündə birləşdirən fundamental dəyərdir. Azərbaycan Respublikasının Konstitusiyası da müstəqil dövlətçiliyimizin hüquqi əsasını, milli birliyimizin və demokratik inkişafımızın başlıca təminatını təşkil edir.

Ulu Öndər Heydər Əliyevin 1995-ci il 15 dekabr tarixli Fərmanına əsasən noyabrın 12-si Azərbaycan Respublikasının Konstitusiyası Günü elan edilmişdir. Həmin il noyabrın 12-də ümumxalq səsverməsi – referendum yolu ilə qəbul edilən, noyabrın 27-də qüvvəyə minən Əsas Qanun müstəqil Azərbaycanın demokratik, hüquqi və dünyəvi dövlət quruculuğunun hüquqi əsaslarını müəyyənləşdirmiş, dövlət hakimiyyətinin təşkili, hakimiyyət bölgüsü, insan və vətəndaş hüquqlarının müdafiəsi, qanunun aliliyi prinsiplərini təsbit etmişdir.

Azərbaycanın konstitusiya quruculuğu tarixi xalqımızın mürəkkəb dövlətçilik yolunun mühüm mərhələlərini əks etdirir. 1918-1920-ci illərdə fəaliyyət göstərmiş Azərbaycan Xalq Cümhuriyyəti öz Konstitusiyasını qəbul edə bilməsə də, milli dövlətçilik tariximizdə əvəzsiz iz qoymuşdur. Sovet hakimiyyəti dövründə isə Azərbaycanın ilk Konstitusiyası 1921-ci il mayın 19-da qəbul edilmiş, sonrakı illərdə 1927, 1937 və 1978-ci illərdə yeni konstitusion sənədlər təsdiqlənmişdir. Lakin həmin sənədlər Azərbaycanın müstəqil dövlət kimi suveren iradəsini deyil, sovet dövlətçilik sisteminin siyasi və hüquqi prinsiplərini ifadə edirdi.

Bununla belə sovet dövründə milli dövlətçilik düşüncəsinin qorunması istiqamətində Ümummilli Lider Heydər Əliyevin fəaliyyəti xüsusi tarixi əhəmiyyət daşıyırdı. Onun qətiyyətli mövqeyi və təşəbbüsü ilə 1978-ci il aprelin 21-də qəbul edilmiş Azərbaycan SSR Konstitusiyasında Azərbaycan dilinin dövlət dili kimi təsbit olunması milli tariximizin mühüm hadisələrindən biri idi.

1991-ci il oktyabrın 18-də qəbul edilmiş "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" Konstitusiya Aktında yeni Konstitusiyanın hazırlanması nəzərdə tutulsa da, müstəqilliyin ilk illərində ölkədə hökm sürən siyasi və iqtisadi böhran bu prosesə imkan verməmişdi. Dövlət idarəçiliyinin zəifləməsi, anarxiya və qeyri-sabitlik dövlətçiliyimizi ciddi təhlükə qarşısında qoymuşdu. Yalnız 1993-cü ildə xalqın tələbi ilə siyasi hakimiyyətə qayıdan Ümummilli Lider Heydər Əliyevin xilaskarlıq missiyası nəticəsində dövlətçiliyin süqutu təhlükəsi aradan qaldırılmış, ictimai-siyasi sabitlik təmin edilmiş və müasir dövlət quruculuğunun təməli qoyulmuşdur. Məhz bundan sonra müstəqil Azərbaycanın yeni Konstitusiyasının hazırlanması dövlət siyasətinin əsas istiqamətlərindən birinə çevrilmişdir.

Ulu Öndər Heydər Əliyev müstəqil Azərbaycanın Əsas Qanununun qarşısında duran başlıca vəzifəni belə ifadə etmişdir: ***"Biz elə bir layihə hazırlamalı və nəhayət, elə bir Konstitusiya qəbul etməliyik ki, o, müstəqil Azərbaycan Respublikasının demokratik prinsiplər əsasında uzun müddət sabit yaşamasını təmin edən Əsas Qanun, tarixi sənəd olsun. Hakimiyyət bölgüsü – ali icra, qanunvericilik, məhkəmə hakimiyyəti – bunlar hamısı xalqın iradəsinə söykənməli, seçkilər yolu ilə təmin olunmalıdır".*** Ulu Öndərin rəhbərliyi ilə yaradılmış Konstitusiya komissiyası tərəfindən hazırlanan layihə geniş ictimai müzakirələrdən keçirilmiş, milli dövlətçilik ənənələri, beynəlxalq hüququn mütərəqqi prinsipləri və demokratik idarəçilik təcrübəsi nəzərə alınmışdır. 1995-ci il noyabrın 12-də keçirilən referendumla Azərbaycan xalqı öz suveren iradəsini nümayiş etdirərək müstəqil dövlətinin Əsas Qanununu qəbul etmişdir.

Azərbaycan Respublikasının Konstitusiyası xalq hakimiyyəti prinsipinə əsaslanır. Əsas Qanunda dövlət hakimiyyətinin yeganə mənbəyinin Azərbaycan xalqı olduğu, dövlətin müstəqilliyinin, suverenliyinin və ərazi bütövlüyünün qorunmasının ali məqsədlər daşıdığı təsbit edilir. İnsan hüquq və azadlıqları, qanunun aliliyi, hakimiyyət bölgüsü, siyasi plüralizm, sosial ədalət və vətəndaş cəmiyyətinin inkişafı Konstitusiyanın əsas prinsiplərini təşkil edir. Yaşamaq, azadlıq, mülkiyyət, təhsil, əmək və sosial təminat hüquqları, fikir və söz azadlığı, vicdan və etiqad azadlığı, qanun qarşısında bərabərlik dövlətin hüquqi məsuliyyətinin mühüm istiqamətləridir.

Konstitusiyanın qəbulu ilə hüquqi dövlət quruculuğunun institusional əsasları da formalaşdırılmışdır. Əsas Qanunda nəzərdə tutulan konstitusiya ədalət mühakiməsinin həyata keçirilməsi məqsədilə 1998-ci ildə Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi fəaliyyətə başlamışdır. Bu təsisat Konstitusiyanın aliliyinin təmin edilməsi, normativ-hüquqi aktların Əsas Qanuna uyğunluğunun yoxlanılması və insan hüquqlarının müdafiəsi baxımından mühüm rol oynayır.

Ölkənin inkişafı və idarəetmə sisteminin təkmilləşdirilməsi zərurəti sonrakı illərdə Konstitusiyaya əlavə və dəyişikliklərin edilməsini şərtləndirmişdir. 2002-ci il avqustun 24-də keçirilən referendumla Konstitusiyanın 24 maddəsinə 29, 2009-cu il martın 18-də keçirilən referendumla isə 25 maddəsinə 30-dan artıq əlavə və dəyişiklik edilmişdir. 2016-cı il sentyabrın 26-da keçirilən referendum nəticəsində Konstitusiyanın 29 maddəsinə 41 əlavə və dəyişiklik təsdiqlənmiş, dövlət idarəetmə sistemində Birinci vitse-prezidentlik institutu yaradılmışdır. Bu dəyişikliklər idarəetmə mexanizmlərinin təkmilləşdirilməsi, dövlət institutlarının fəaliyyətinin səmərəliliyinin artırılması və insan hüquqlarının müdafiəsi ilə bağlı yeni hüquqi əsaslar formalaşdırmışdır.

Müasir Azərbaycanın inkişafında Konstitusiyanın əhəmiyyətini daha da artıran mühüm tarixi hadisə ölkəmizin ərazi bütövlüyünün və dövlət suverenliyinin tam bərpasıdır. 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsində qazanılmış tarixi Qələbə və 2023-cü il sentyabrında həyata keçirilən antiterror əməliyyatı nəticəsində Azərbaycanın bütün ərazilərində suveren hüquqları bərpa edilmiş, Konstitusiyamızın hüquqi qüvvəsi ölkənin bütün ərazisində təmin olunmuşdur.

Bu tarixi nailiyyətlər Konstitusiyada təsbit edilmiş müstəqillik, suverenlik və ərazi bütövlüyü prinsiplərinin real siyasi-hüquqi məzmununu nümayiş etdirdi. Uzun illər işğal altında qalmış torpaqlarımızda Azərbaycan qanunlarının və dövlət idarəçiliyinin bərpası konstitusion quruluşumuzun tamlığı baxımından müstəsna əhəmiyyət daşıyır. Bu gün Qarabağ və Şərqi Zəngəzurda həyata keçirilən bərpa və quruculuq işləri, yeni yaşayış məntəqələrinin salınması, infrastrukturun yaradılması və keçmiş məcburi köçkünlərin doğma yurdlarına qayıdışı Konstitusiyanın müəyyən etdiyi dövlətçilik məqsədlərinin əməli təcəssümüdür.

Prezident İlham Əliyevin rəhbərliyi ilə əldə edilmiş bu tarixi nailiyyətlər dövlət müstəqilliyinin və suverenliyin hüquqi və institusional baxımdan möhkəmləndirilməsinin əhəmiyyətini bir daha ortaya qoyur. Bu baxımdan, 2025-ci ilin ölkəmizdə "Konstitusiya və Suverenlik İli" elan edilməsi xüsusi siyasi və tarixi məna daşıyırdı. Prezident İlham Əliyevin 2024-cü il dekabrın 28-də imzaladığı Sərəncamla elan olunan bu il Konstitusiyanın 30 illiyinin və Vətən müharibəsində qazanılmış Qələbənin beşinci ildönümünün qeyd edilməsi baxımından əlamətdar olmuşdur. İl ərzində keçirilən tədbirlər Əsas Qanunun dövlətçilik tariximizdəki rolunun və suverenliyin hüquqi-siyasi mahiyyətinin daha dərindən dərk edilməsinə xidmət etmişdir.

Konstitusiya və suverenlik anlayışlarının vəhdəti müasir Azərbaycan dövlətçiliyinin əsas xüsusiyyətlərindəndir. Suverenlik dövlətin öz ərazisində ali hakimiyyətə malik olmasını, müstəqil daxili və xarici siyasət həyata keçirməsini ifadə edirsə, Konstitusiya bu hakimiyyətin hüquqi əsaslarını və fəaliyyət çərçivəsini müəyyənləşdirir. Ərazi bütövlüyümüzün və suverenliyimizin bərpası isə Əsas Qanunun tarixi missiyasının daha dolğun şəkildə reallaşmasına imkan yaratmışdır.

1993-cü ildə Ümummilli Lider Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışı Azərbaycanın müasir dövlətçilik tarixində dönüş nöqtəsi oldu. Həmin dövrdə ölkə siyasi-iqtisadi böhran, daxili qarşıdurmalar və cəbhədə ağır vəziyyətlə üz-üzə idi. İlk növbədə, dövlət müstəqilliyini qorumaq, sabitliyi təmin etmək və milli maraqları vahid strategiya ətrafında birləşdirmək tələb olunurdu.

Tarixi Zəfər: dövlətçilik iradəsi, xalq birliyi və milli qürur



Xəzəngül ORUCOVA
Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı

Ulu Öndərin müəyyənləşdirdiyi dövlətçilik kursu, Azərbaycançılıq ideologiyası, iqtisadi müstəqilliyin möhkəmləndirilməsi və beynəlxalq əlaqələrin genişləndirilməsi gələcək Zəfərin təməlini qoydu. 1994-cü il sentyabrın 20-də imzalanan "Əsrin müqaviləsi" ölkəmizin iqtisadi inkişafında yeni mərhələ açdı. Sonrakı illərdə Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum və Cənub Qaz Dəhlizi kimi strateji layihələr Azərbaycanın iqtisadi və geosiyasi mövqeyini gücləndirdi. Güclü iqtisadiyyat müstəqil siyasətin, müstəqil siyasət isə milli təhlükəsizliyin mühüm təminatına çevrildi.

Ulu Öndərin siyasi kursu Prezident İlham Əliyevin rəhbərliyi ilə davam etdirilərək yeni dövrün tələblərinə uyğun inkişaf etdirildi. Ordu quruculuğu, müasir silah və texnologiyaların alınması, müdafiə sənayesinin inkişafı, hərbi təhsilin təkmilləşdirilməsi dövlət siyasətinin prioritet istiqamətlərindən oldu. Prezident İlham Əliyevin 2024-cü il mayın 10-da Şuşada səsləndirdiyi ***"Biz hazırlaşırdıq, ölkəmizi gücləndirirdik, iqtisadiyyatımızı gücləndirirdik, güclü ordu potensialı yaradırdıq"*** fikri 2020-ci il Zəfərinin arxasında dayanan uzunmüddətli strategiyanı aydın ifadə edir.

Vətən müharibəsi – tarixin dəyişdiyi günlər

2020-ci il sentyabrın 27-də Ermənistan silahlı qüvvələrinin genişmiqyaslı təxribatlarına cavab olaraq Azərbaycan Ordusunun əks-hücum əməliyyatlarına başlaması xalqımızın çoxillik torpaq həsrətinə son qoyacaq tarixi mübarizənin başlanğıcı oldu. Bu, ərazi bütövlüyünün bərpası, tarixi ədalətin təmin edilməsi və doğma yurdlarından didərgin düşmüş insanların qayıdışı uğrunda ümumxalq mübarizəsi idi.

Azərbaycan Ordusu qısa müddətdə düşmənin illərlə qurduğu müdafiə istehkamlarını yararaq Cəbrayıl, Füzuli, Zəngilan, Qubadlı və digər istiqamətlərdə mühüm uğurlar qazandı. Cəbhədən gələn müjdələr ölkənin bütün bölgələrində böyük sevinc və qürurla qarşılanırdı. Noyabrın 8-də Şuşanın azad edilməsi isə müharibənin ən möhtəşəm hadisəsinə çevrildi. Mürəkkəb dağ relyefi, sıldırım qayalar və düşmənin müdafiə mövqeləri Azərbaycan hərbçilərinin peşəkarlığı və qəhrəmanlığı qarşısında aciz qaldı. Şuşanın azadlığı həm də milli-mənəvi yaddaşımızın və tarixi ədalətin təntənəsi idi. Həmin gün Prezident İlham Əliyev Şəhidlər xiyabanından Azərbaycan xalqına müraciət edərək tarixi xəbəri bəyan etdi: ***"Böyük fəxarət və qürur hissi ilə bəyan edirəm ki, Şuşa şəhəri işğaldan azad edildi! Şuşa bizimdir! Qarabağ bizimdir!"***

Dövlət başçısının ***"Mən bu gün, eyni zamanda Ulu Öndər Heydər Əliyevin məzarını ziyarət etdim, onun ruhu qarşısında baş əydim. Ürəyimdə dedim, xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim"*** sözləri isə dövlətçilik varisliyinin və illərlə qarşıya qoyulmuş milli hədəfin gerçəkləşməsinin ifadəsinə çevrildi. Noyabrın 10-da imzalanan üçtərəfli Bəyanatla hərbi əməliyyatlar dayandırıldı, Ağdam, Kəlbəcər və Laçın rayonlarının Azərbaycana qaytarılması təmin olundu. Beləliklə, döyüş meydanında qazanılan qələbə siyasi nəticələrlə tamamlandı.

Tarixi Zəfərin mühüm dayaqlarından biri də xalqın birliyi idi. Müharibənin ilk günlərindən Azərbaycan vahid amal ətrafında birləşdi. Prezident İlham Əliyevin ***"Bu gün Azərbaycan xalqı bu yumruq kimi birləşib! Həmişə belə olacaq! Bu birlik əbədi olacaq! Bu birlik bizə gələcəkdə də bütün vəzifələri icra etmək üçün imkan yaradacaq"*** fikri həmin həmrəyliyin rəmzinə çevrildi. "Dəmir yumruq" xalqın iradəsini, dövlətlə cəmiyyətin birliyini və milli həmrəyliyi təcəssüm etdirdi. Bu birlikdə hərbçilərin döyüş əzmi, şəhid ailələrinin dözümü, qazilərin fədakarlığı, anaların duası və milyonlarla insanın Vətən sevgisi birləşirdi.

Zəfərin qəhrəmanları – Azərbaycan əsgəri və zabiti

44 günlük müharibənin əsas qəhrəmanları torpaqlarımızı canları və sağlamlıqları bahasına azad edən şəhidlərimiz, qazilərimiz, əsgər və zabitlərimizdir. Müasir müharibələrdə hərbi texnologiyalar mühüm rol oynasa da, qələbənin əsas təminatçısı Azərbaycan hərbçisinin iradəsi, peşəkarlığı və Vətən sevgisi oldu. Prezident İlham Əliyevin 2024-cü il mayın 10-da Şuşada ***"Bugünkü günə görə biz onlara borcluyuq, şanlı Ordumuza borcluyuq, Silahlı Qüvvələrimizə borcluyuq, şəhidlərimizə, qazilərimizə borcluyuq"*** fikri bu həqiqəti dolğun ifadə edir.

Müharibə müstəqillik dövründə yetişən gənc nəslin vətənpərvərlik ruhunu, milli dəyərlərə bağlılığını və Vətən qarşısında məsuliyyətini də nümayiş etdirdi. Onların qəhrəmanlığı ümumxalq Zəfər tariximizin ayrılmaz hissəsidir.

Zəfərdən sülhə – tam suverenlik və yeni reallıqlar

2020-ci il Zəfəri Azərbaycanın ərazi bütövlüyünün bərpasında həlledici mərhələ olsa da, ölkənin bütün ərazisində suverenliyin tam təmin olunması üçün qarşıda mühüm vəzifələr qalırdı. 2023-cü ilin sentyabrında həyata keçirilən lokal xarakterli antiterror tədbirləri nəticəsində Azərbaycan suverenliyini bütün ərazisində bərpa etdi. Bununla da ərazi bütövlüyünün və konstitusiya quruluşunun təmin olunması istiqamətində tarixi mərhələ tamamlandı.

Azərbaycanın yaratdığı yeni reallıqlar regionda sülh və əməkdaşlıq perspektivlərini də gündəmə gətirdi. 2025-ci il avqustun 8-də Vaşinqtonda Azərbaycan və Ermənistan arasında münasibətlərin normallaşdırılması istiqamətində əldə olunan razılaşmalar bu prosesin mühüm mərhələsi oldu. Prezident İlham Əliyev, ABŞ Prezidenti Donald Tramp və Ermənistanın Baş naziri Nikol Paşinyanın iştirakı ilə Birgə Bəyannamə imzalandı, sülh sazişinin mətni paraflandı.

Azərbaycanın əsas məqsədi qazandığı tarixi nailiyyətləri qorumaqla regionda təhlükəsiz və sabit mühitin formalaşmasına töhfə verməkdir. Bu baxımdan, Naxçıvanın geosiyasi əhəmiyyəti də xüsusi qeyd olunmalıdır. Azərbaycanla Naxçıvan arasında nəqliyyat bağlantısının genişlənməsi, Zəngəzur istiqamətində kommunikasiyaların inkişafı muxtar respublikanın uzun illər üzləşdiyi blokada məhdudiyyətlərinin aradan qaldırılması və ölkəmizin beynəlxalq logistika imkanlarının genişləndirilməsi baxımından mühüm perspektivlər açır.

Bu gün Qarabağ və Şərqi Zəngəzur genişmiqyaslı quruculuq mərhələsini yaşayır. Yeni yollar, körpülər, hava limanları, yaşayış kompleksləri, məktəblər və sosial infrastruktur obyektləri tikilir. İqtisadi fəaliyyətin bərpası, sahibkarlığın təşviqi və yeni iş yerlərinin yaradılması Böyük Qayıdışın əsas istiqamətləridir. Vətən müharibəsində qazanılan möhtəşəm Qələbə ardıcıl dövlət siyasətinin, güclü iqtisadiyyatın, müasir ordu quruculuğunun, milli həmrəyliyin və Azərbaycan əsgərinin qəhrəmanlığının məntiqi nəticəsi idi.

Şahbuzda payızlıq əkin sahələri genişlənir: fermerlər bol məhsula ümid edirlər

Torpağa bağlılıq, zəhmətə inam və bol məhsul ümidi… Şahbuz rayonunun kəndlərində payızlıq əkin mövsümü bu il daha geniş sahələri əhatə edir. Ötən illə müqayisədə şumlanmış torpaqların və payızlıq əkin sahələrinin əhəmiyyətli dərəcədə artması kənd təsərrüfatında fəallığın yüksəldiyini göstərir. Torpaq mülkiyyətçiləri və fermerlər əkin sahələrini genişləndirməklə yanaşı, məhsuldarlığın artırılmasına, təsərrüfatlarının inkişafına və öz istehsalları hesabına tələbatlarını ödəməyə çalışırlar. Rayonun Mahmudoba və Mərəlik kəndlərində apardığımız müşahidələr də göstərir ki, payızlıq əkin mövsümündə əsas hədəf torpaqdan səmərəli istifadə etmək, mövcud imkanları dəyərləndirmək və gələcək məhsul üçün möhkəm zəmin yaratmaqdır.

Şum sahələrinin artması əkinçilikdə fəallığı göstərir

Şahbuz rayonunda payızlıq əkin mövsümünə hazırlıq işləri ötən illə müqayisədə daha geniş miqyasda aparılır. Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin mətbuat xidmətindən verilən məlumata görə, cari ildə rayonda 774 hektar sahədə şum aparılıb. Ötən il bu göstərici 331 hektar olub. Beləliklə, şumlanmış sahələrin həcmi 443 hektar artıb.

Payızlıq əkin sahələrində də nəzərəçarpan artım qeydə alınıb. Ötən il 164 hektar olan əkin sahəsi cari ildə 437 hektara çatıb. Bu, 273 hektar artım deməkdir.

Rəqəmlər rayonda əkinçiliyin genişləndirilməsi istiqamətində fəallığın artdığını göstərir. Şum sahələrinin böyüməsi yeni əkinlər üçün zəmin yaradır, payızlıq əkinlərin genişlənməsi isə kənd təsərrüfatı istehsalının artırılması baxımından əhəmiyyət daşıyır. Görülən işlər "Azərbaycan Respublikasında kənd təsərrüfatı, balıqçılıq və akvakultura məhsullarının istehsalı və emalı sahələrinin inkişafına dair 2026-2030-cu illər üçün Dövlət Proqramı"nda müəyyənləşdirilən hədəflərlə də uzlaşır.

Torpağun dilini bilən əkinçinin zəhməti

Şahbuz rayonunun Mahmudoba kənd sakini Turab Kərimov, təxminən, 30 ilə yaxındır ki, əkinçiliklə məşğuldur. Torpaqların özəlləşdirilməsindən sonra, 1997-ci ildən etibarən bu sahədə



fəaliyyətini davam etdirən təsərrüfatçı hər il pay torpaqlarında, eləcə də bələdiyyə ilə bağladığı müqavilələr əsasında taxıl əkib. İllərin təcrübəsi ona torpağın xüsusiyyətlərini, yağıntıların və hava şəraitinin məhsuldarlığa təsirini yaxından öyrədib.

Təsərrüfatçının sözlərinə görə, ayrı-ayrı illərdə hektardan 10-30 sentner məhsul götürüb. Məhsuldarlığın dəyişməsi, əsasən, torpaq-iqlim şəraiti və su təminatı ilə bağlıdır. Buna görə də yüksək məhsul əldə etmək üçün əkinin düzgün planlaşdırılması və aqrotexniki tədbirlərin vaxtında həyata keçirilməsi vacibdir. Cari mövsümdə Turab Kərimov əkin sahəsini genişləndirib.

"Keçən il 2 hektar sahədə taxıl əkmişdimsə, bu il artıq 3 hektar sahədə əkin aparmışam. Şumlama işləri görülüb, toxum hazırdır. Dövlət tərəfindən verilən gübrəni götürəcəyəm. Toxumla birlikdə fosfor və digər gübrələri də torpağa verəcəyəm. Məqsədimiz yüksək məhsul əldə etməkdir", – deyə təsərrüfatçı bildirir.

Təsərrüfatçının gözləntisi budur ki, gübrələmə və suvarma tədbirləri vaxtında həyata keçirilər, hava şəraiti də əlverişli keçərsə, bu mövsüm daha yüksək məhsul əldə etmək mümkün olacaq.

Taxılçılıq və heyvandarlıq bir təsərrüfatda birləşir

Mərəlik kənd sakini İlham Həsənov da uzun illərdir, kənd təsərrüfatı ilə məşğuldur. O, taxılçılıqla yanaşı, heyvandarlığı da inkişaf etdirir. Əkin sahələrində arpa yetişdirməyə üstünlük verməsi də təsərrüfatın yem təminatını öz istehsalı hesabına qurmaq istəyindən irəli gəlir.



Fermerin sözlərinə görə, ötən il 3,1 hektar sahədə taxıl əkib. Bunun 2 hektarında arpa, 1,1 hektarında isə buğda yetişdirib. Hər hektardan orta hesabla 23 sentner məhsul götürüb.

Cari ildə isə 3 hektar sahədə taxıl əkib. Bu sahənin 0,75 hektarı arpa, qalan hissəsi isə buğdadır. Təsərrüfatçı gələcəkdə əkin sahələrini mövcud imkanlar daxilində daha da genişləndirmək niyyətindədir.

Onun təsərrüfatında taxılçılıqla heyvandarlıq bir-birini tamamlayır. Altı baş iribuynuzlu malqara saxlayan fermer yetişdirdiyi arpadan heyvanların yemlənməsində istifadə edir. Beləliklə, taxıl istehsalı yalnız satışdan gəlir əldə etmək vasitəsi deyil, həm də heyvandarlığın yem təminatını yaxşılaşdıran mühüm mənbə rolunu oynayır.

İlham Həsənovun təsərrüfat təcrübəsi əkinçiliklə heyvandarlığın uzlaşdırılmasının əhəmiyyətini göstərir. Öz istehsalı hesabına yem təminatının yaxşılaşdırılması fermerin əlavə xərclərini azaltmağa, təsərrüfatın gəlirliliyini və dayanıqlılığını artırmağa imkan yaradır. Bu yanaşma mövcud torpaq və istehsal imkanlarından daha səmərəli istifadə baxımından da diqqətəlayiqdir.

Məqsəd daha çox məhsul, daha dayanıqlı təsərrüfatdır

Şahbuz rayonunda payızlıq əkin mövsümünün mənzərəsi torpaqdan istifadənin genişləndiyini və fermerlərin yeni məhsul mövsümünə hazırlığa ciddi yanaşdıqlarını göstərir. Şumlanmış sahələrin 248 hektardan 700 hektara, payızlıq əkin sahələrinin isə 41 hektardan 239,5 hektara yüksəlməsi cari ildə əkinçilik işlərinin miqyasının əhəmiyyətli dərəcədə artdığını təsdiqləyir.

Təbii ki, əkin sahələrinin artması ilə yanaşı, məhsuldarlığın yüksəldilməsi də əsas hədəf olmalıdır. Bunun üçün keyfiyyətli toxum və gübrə təminatı, aqrotexniki qaydalara əməl olunması, su ehtiyatlarından səmərəli istifadə və suvarmanın vaxtında təşkili mühüm əhəmiyyət daşıyır. Çünki torpağa göstərilən qayğı, düzgün planlaşdırma və vaxtında görülən aqrotexniki tədbirlər yalnız bir mövsümün nəticəsini deyil, kənd təsərrüfatının gələcək inkişafını da müəyyənləşdirir.

Kəngərlidə taxıl əkini genişlənir, suvarma problemi isə qalır

Fermerlər çəkdikləri zəhmətin bəhrəsini görmək üçün suvarma suyunun vaxtında və fasiləsiz verilməsini gözləyirlər

Payızın torpağa hopan sərin nəfəsi Kəngərlinin əkin sahələrində yeni bir zəhmət mövsümünün başlandığından xəbər verir. Torpağa səpilən hər bir toxum fermerin aylarla bəslədiyi ümidin, çəkdiyi zəhmətin və gələcəyə hesablanan planlarının ifadəsidir. Rayonun Xok kəndində də taxıl əkini davam edir. Fermerlər ötən illə müqayisədə əkin sahələrini genişləndirərək daha çox məhsul əldə etməyə hazırlaşırlar. Lakin bu zəhmətin bəhrəsini görmək üçün vacib şərtlərdən biri – suvarma suyu ilə vaxtında və fasiləsiz təminat məsələsi onların əsas narahatlığı olaraq qalır.

Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin mətbuat xidmətindən verilən məlumata görə, Kəngərli rayonunda bu günədək 2221 hektar sahədə taxıl əkini həyata keçirilib. Bunun 1920 hektarını arpa, 301 hektarını isə buğda sahələri təşkil edir. Əkilmiş sahələrin 1144 hektarında suvarma aparılıb. Ötən ilin müvafiq dövrü ilə müqayisədə əkin sahələri 936 hektar, suvarılan sahələr isə 679 hektar artıb. Bu göstəricilər rayonda taxılçılığın genişləndirilməsi istiqamətində fermerlərin təşəbbüskarlığının artdığını göstərir.

Ancaq əkin sahələrinin genişlənməsi suya olan tələbatı da artırır. Mövcud göstəricilərə əsasən hazırda əkilmiş sahələrin 51,5 faizi suvarılıb. Mövsümün hava şəraitinin dəyişkənliyi, qarşıdakı günlərdə temperaturun aşağı düşməsi ehtimalı nəzərə alınarsa, suvarmanın vaxtında aparılması daha böyük əhəmiyyət kəsb edir.

Torpağa yatırılan zəhmət su gözləyir

Xok kənd sakini Hamil Qasımov 28 hektar sahədə



taxıl əkdiyini deyir. Fermerin sözlərinə görə, əkinə başlamazdan əvvəl suvarma ilə bağlı təminat veriləcəyinə ümid edib. Hətta təsərrüfatını genişləndirmək məqsədilə kredit götürərək traktor da alıb. Lakin hazırda onun qarşısında duran əsas çətinlik su çatışmazlığıdır.

"28 hektar torpağım var, əkmişəm, sahələr hazırdır. Amma su yoxdur. Bizə əkin suyu veriləcəyini, kömək göstəriləcəyini deyirdilər. Mən də buna inanıb kredit götürdüm, traktor aldım. Təkcə texnikaya deyil, arpanın səpilməsinə, sahələrin şumlanmasına da 6-7 min manat xərc çəkmişəm. Ancaq indi su gözləyirik. Böyükdüzün, Xokun bəzi ərazilərində su var, amma Yeni Kərki kəndinin sahələrinə su çatmır. Əsas istəyimiz əkin sahələrimizin suvarma suyu ilə təmin olunmasıdır", – deyə fermer bildirir.

Fermerin sözlərindən də aydın olur ki, əkin prosesinin başa çatması hələ təsərrüfat işlərinin uğurla nəticələnməsi demək deyil. Torpağa yatırılan vəsaitin, çəkilən zəhmətin bəhrəsini verməsi üçün bitkilərin inkişafının ilkin mərhələsindən etibarən vaxtında suvarılması vacibdir.

Digər kənd sakini Elnur Tağıyev də uzun illərdir, əkinçilik və heyvandarlıqla məşğul olur. Ötən



il 30 hektar sahədə taxıl əkən fermer bu il əkin sahəsini 40 hektara çatdırıb. Lakin hazırda həmin sahənin yalnız 8 hektarında suvarma aparılıb, qalan 32 hektar ərazi isə suvarılmasını gözləyir.


Fermerin sözlərinə görə, əsas problem su ehtiyatının azlığından daha çox mövcud suvarma xətlərində yaranan nasazlıqların vaxtında aradan qaldırılmaması ilə bağlıdır.

"Su xətlərində qırılmalar var. Su öz istiqamətinə getmək əvəzinə başqa ərazilərə axır, biz isə sahələrimizə su çatdıra bilmirik. Müraciət edirik, üç günə, beş günə düzəldiləcəyini deyirlər. Ancaq günlər keçir, problem yenə də qalır. Vaxt ötür, havalar soyuyur. Biz istəyirik ki, suvarma məsələsinə vaxtında nəzarət edilsin, xətlərdəki nasazlıqlar aradan qaldırılsın və su əkin sahələrinə qrafik üzrə çatdırılsın", – deyə Elnur Tağıyev vurğulayır.

Taxılçılığın inkişafı üçün əsas şərt – dayanıqlı su təminatı

Xok kəndinin digər sakini, uzun illərdir, taxılçılıqla məşğul olan Şahəddin Zeynalov da suvarma məsələsinin təsərrüfatların gələcək fəaliyyətinə birbaşa təsir göstərdiyini deyir. Ötən il 44 hektar sahədə taxıl əkən fermer bu il əkin sahələrini daha da genişləndirərək 65 hektar buğda, 20 hektar isə arpa sahəsi hazırlayıb.

Onun sözlərinə görə, ərazidə Arpaçay və Araz çayı xətlərindən,



eləcə də Uzunoba su anbarından qidalanan suvarma sistemlərindən istifadə olunur. Lakin xüsusilə Uzunoba su anbarından gələn xətlərin mövcud vəziyyəti suyun əkin sahələrinə fasiləsiz çatdırılmasında çətinliklər yaradır.

"Əvvəlki illərdə də suvarma ilə bağlı müəyyən çətinliklərimiz olub, ancaq bu il vəziyyət daha ağırdır. Əkin apardığım ərazidə, təxminən, 300 hektara yaxın taxıl sahəsi var. Bu sahələrin suvarılması üçün tələb olunan su lazımi həcmdə çatdırılmır. Bəzən bir-iki gün su verilir, sonra fasilə yaranır. Təmir işləri aparılır, lakin problem yenidən təkrarlanır. Biz də istəyirik ki, əkin sahələrimiz vaxtında suvarılsın, çəkdiyimiz zəhmət hədər getməsin. Ölkəmizin ərzaq təhlükəsizliyinə töhfə vermək, daxili bazarın təminatında iştirak etmək üçün əkin sahələrimizi artırmaq istəyirik", – deyə Şahəddin Zeynalov qeyd edir.

Fermerlərin fikirlərindən də görünür ki, taxıl istehsalının artırılması yalnız əkin sahələrinin genişləndirilməsi ilə məhdudlaşmır. Bu proses suvarma infrastrukturunun işlək vəziyyətdə saxlanılmasını, xətlərdəki nasazlıqların vaxtında aradan qaldırılmasını, su itkilərinin qarşısının alınmasını və əkin sahələrinin müəyyən edilmiş qrafik üzrə su ilə təmin edilməsini tələb edir. Əks halda, fermerlərin istehsalı artırmaq üçün göstərdikləri təşəbbüs və çəkdikləri əlavə xərclər gözlənilən nəticəni verməyə bilər.

Çünki taxılçılıqda məhsulun taleyi yalnız toxumdan və torpaqdan deyil, həm də suyun lazımi vaxtda və fasiləsiz çatdırılmasından asılıdır.

Qeyd edək ki, Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 21 fevral tarixli Sərəncamı ilə təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikasında su ehtiyatlarından səmərəli istifadənin təmin edilməsinə dair 2026-2030-cu illər üçün Tədbirlər Planı" bu istiqamətdə mühüm sənəddir. Planda su infrastrukturunun təkmilləşdirilməsi, mövcud su ehtiyatlarından səmərəli istifadə və kənd təsərrüfatının suvarma suyu ilə təminatının yaxşılaşdırılması əsas istiqamətlər kimi müəyyənləşdirilib. Qarşıdakı illərdə nəzərdə tutulan tədbirlərin həyata keçirilməsi suvarma sistemlərinin yenilənməsinə, su itkilərinin azaldılmasına və kənd təsərrüfatı istehsalının inkişafına mühüm töhfə verə bilər. Bununla yanaşı, fermerlərin hazırda üzləşdikləri problemlərin operativ həlli, mövcud suvarma xətlərinin vəziyyətinə nəzarətin gücləndirilməsi də diqqətdə saxlanılmalıdır.

Nail ƏSGƏROV

Ləzzət Biskvit və Şokolad Fabriki:

dövlət dəstəyi ilə yerli istehsaldan beynəlxalq bazarlara

2,7 milyon manatlıq ixrac, 143 iş yeri, 100-dən çox məhsul çeşidi – yerli istehsalın uğur nümunəsi


Yerli istehsalın gücləndirilməsi, qeyri-neft sektorunun şaxələndirilməsi və ixrac coğrafiyasının genişləndirilməsi ölkəmizin iqtisadi inkişaf strategiyasının mühüm istiqamətlərindəndir. Bu sahədə həyata keçirilən dövlət dəstəyi tədbirləri, sahibkarlıq üçün yaradılan əlverişli şərait və istehsal sahələrinə yönəldilən investisiyalar iqtisadiyyatın real sektorunda yeni imkanlar açır. Həmin imkanlardan səmərəli yararlanaraq fəaliyyətini ildən-ilə genişləndirən müəssisələr isə həyata keçirilən iqtisadi siyasətin nəticələrini konkret göstəricilərlə nümayiş etdirirlər.

Naxçıvanda fəaliyyət göstərən "Ləzzət Biskvit və Şokolad Fabriki" MMC-nin inkişaf yolu yerli istehsalın potensialını, dövlət-sahibkar əməkdaşlığının səmərəsini və ixrac imkanlarının genişliyini əks etdirən uğurlu nümunələrdəndir.

Kiçik istehsaldan geniş ixrac imkanlarına

2010-cu ildən fəaliyyət göstərən müəssisə ötən müddətdə istehsal imkanlarını əhəmiyyətli dərəcədə genişləndirib. İlk dövrlərdə bir istehsal xətti və 30 nəfərlik kollektivlə çalışan fabrik hazırda iki vafli və bir peçenye istehsal xəttinə malikdir. Müəssisədə 143 nəfər işlə təmin olunub. İstehsal prosesində Türkiyədən gətirilmiş müasir avadanlıqlardan istifadə olunur. Avtomatlaşdırılmış sistem əsasında çalışan bu avadanlıqlar məhsulların fasiləsiz və səmərəli istehsalına imkan yaradır.

Müəssisənin icraçı direktoru Emin Rzayev bildirir ki, fəaliyyətin ilk illərində burada 20-yə yaxın çeşiddə, 30 qramdan 5 kiloqramadək müxtəlif çəkilərdə məhsullar istehsal olunub. Hazırda isə məhsul çeşidlərinin sayı 100-ü ötüb. Bu çeşidlərə şokolad örtüklü vaflilər, şokoladlı peçenyelər, kakaolu, bananlı, çiyələkli və müxtəlif tərkibli digər şirniyyat məhsulları daxildir. Fabrikdə istehsal olunan məhsullar Azərbaycanın müxtəlif şəhərlərinə göndərilməklə yanaşı, xarici ölkələrin bazarlarına da çıxarılır. Hazırda müəssisənin ixrac coğrafiyasına Yəmən, İran, İsrail, Qazaxıstan və İraq daxildir. Təkcə 2026-cı ilin ilk 10 ayı ərzində 2 milyon 710 min manat dəyərində məhsulun ixrac edilməsi fabrikin xarici bazarlardakı fəaliyyətinin miqyasını və istehsal potensialını aydın göstərir.




Dövlət dəstəyi istehsalın genişlənməsinə stimul verir

İstehsal müəssisələrinin inkişafında investisiya qoyuluşları ilə yanaşı, dövlətin sahibkarlara təqdim etdiyi təşviq və güzəşt mexanizmləri də mühüm rol oynayır. "Ləzzət Biskvit və Şokolad Fabriki" MMC-nin fəaliyyəti də dövlət dəstəyinin real istehsal imkanlarına çevrilməsinin nümunəsidir.

İcraçı direktorun sözlərinə görə, fəaliyyətə başladığı dövrdən investisiya təşviqi mexanizmlərindən yararlanmaq məqsədilə müvafiq dövlət qurumlarına müraciət edilib və nəticədə, investisiya təşviqi sənədi əldə olunub. Bu sənəd əsasında istehsal avadanlıqlarının idxalı zamanı gömrük idxal rüsumu və əlavə dəyər vergisi üzrə güzəştlərdən, eləcə də yeddi il müddətində mənfəət vergisinin 50 faizinin ödənilməsindən azadolma imkanından istifadə edilib. Bununla yanaşı, 2026-cı ilin yanvarından qüvvəyə minən qərara əsasən investisiya təşviqi sənədinə malik istehsal müəssisələrinin istehsal prosesində istifadə etdikləri xammal və materialların idxalı zamanı gömrük idxal rüsumu və əlavə dəyər vergisi üzrə azadolmaların tətbiqi də fabrikin fəaliyyətinə əlavə stimul verib.

Müəssisə indiyədək bu mexanizmlər çərçivəsində, təxminən, 450 min manat məbləğində idxal rüsumu və ƏDV güzəştlərindən yararlanıb. Həmçinin 2027-ci ilin ilk üç ayı ərzində işəgötürən tərəfindən ödənilən sosial sığorta haqları üzrə, təxminən, 350 min manat subsidiya əldə edilməsi nəzərdə tutulur. Bütün bu dəstək mexanizmləri istehsal xərclərinin optimallaşdırılması, maliyyə imkanlarının genişləndirilməsi və əldə olunan vəsaitlərin yenidən istehsala yönəldilməsi baxımından əhəmiyyətlidir. Eyni zamanda əməkhaqqı fondunun və işçi sayının artırılması, istehsal potensialının gücləndirilməsi, yeni məhsulların hazırlanması və ixrac bazarlarının genişləndirilməsi üçün əlavə imkanlar yaradır.





Beynəlxalq sərgilər yeni bazarlara açılan qapıdır

Müəssisənin inkişaf strategiyasında daxili bazarın tələbatını ödəməklə yanaşı, xarici bazarlarda mövqeyini möhkəmləndirmək də əsas hədəflərdəndir. Bu məqsədlə fabrik beynəlxalq sərgilərdə iştirak edir, potensial tərəfdaşlarla əlaqələr qurur, məhsullarının xarici bazarlarda tanıdılması istiqamətində fəaliyyətini genişləndirir.





Bu yaxınlarda Birləşmiş Ərəb Əmirliklərinin Dubay şəhərində keçirilən beynəlxalq sərgidə Azərbaycan pavilyonunda təmsil olunan müəssisənin nümayəndələri hazırda Çinin Honkonq şəhərində təşkil edilən sərgidə də iştirak edirlər. Belə platformalar məhsulların beynəlxalq auditoriyaya təqdim edilməsi, yeni distribütorların və işgüzar tərəfdaşların tapılması, eləcə də ixrac coğrafiyasının genişləndirilməsi baxımından mühüm əhəmiyyət daşıyır. Eyni zamanda beynəlxalq sərgilərdə iştirak yerli istehsalçıların rəqabət qabiliyyətinin artırılmasına və Azərbaycan məhsullarının xarici bazarlarda tanıdılmasına xidmət edir.

Müəssisədə istehsalın həcmi ilə yanaşı, məhsulun keyfiyyətinə və qida təhlükəsizliyinə də xüsusi diqqət yetirilir. Fabrik ISO 9001 keyfiyyətin idarə edilməsi və ISO 22000 qida təhlükəsizliyinin idarə edilməsi sistemləri üzrə beynəlxalq sertifikatlara malikdir. Bu standartların tətbiqi istehsal proseslərinin müəyyən edilmiş tələblərə uyğun təşkilinə, məhsulun keyfiyyətinə və təhlükəsizliyinə nəzarətin təmin olunmasına imkan yaradır.

Məşğulluğa və peşə hazırlığına töhfə

İstehsal müəssisələrinin iqtisadi əhəmiyyəti yalnız hazırlanan məhsulların həcmi və ixrac göstəriciləri ilə məhdudlaşmır. Onların fəaliyyətinin mühüm nəticələrindən biri də yeni iş yerlərinin yaradılması, əhalinin məşğulluğunun təmin edilməsi və yerli kadr potensialının inkişafıdır. "Ləzzət Biskvit və Şokolad Fabriki" MMC də bu istiqamətdə fəaliyyətini uğurla davam etdirir. Fəaliyyətə 30 nəfərlə başlayan müəssisədə hazırda 143 nəfərin çalışması istehsalın genişlənməsi ilə yanaşı, məşğulluq imkanlarının da artdığını göstərir. Fabrik ali və ümumi təhsil müəssisələri ilə əməkdaşlıq edərək tələbə və şagirdlərin istehsalat prosesi ilə tanış olmalarına şərait yaradır. Burada təşkil olunan təcrübə proqramları gənclərin nəzəri biliklərini praktikada tətbiq etmələrinə, istehsal mühitini yaxından tanımalarına və peşə bacarıqlarını inkişaf etdirmələrinə imkan verir.

Yerli istehsalın uğuru ölkə iqtisadiyyatının uğurudur

"Ləzzət Biskvit və Şokolad Fabriki" MMC-nin 16 illik fəaliyyəti bir daha təsdiq edir ki, məqsədyönlü istehsal strategiyası, müasir texnologiyalara əsaslanan inkişaf, dövlət dəstəyi və sahibkarlıq təşəbbüskarlığı bir araya gəldikdə yerli müəssisələr əhəmiyyətli inkişaf yolu keçərək beynəlxalq bazarlarda da mövqe qazana bilirlər. Fabrikin istehsal imkanlarını genişləndirməsi, məhsul çeşidlərini artırması və milyonlarla manat dəyərində ixrac həyata keçirməsi bunun konkret göstəriciləridir.


Lakin belə müəssisələrin uğurunu yalnız istehsal həcmi, satış dövriyyəsi və ixrac göstəriciləri ilə qiymətləndirmək doğru olmazdı. Çünki hər yeni istehsal xətti ölkənin sənaye potensialının genişlənməsinə, hər yeni məhsul çeşidi yerli bazarın zənginləşməsinə, yaradılan hər bir iş yeri əhalinin məşğulluğunun və sosial rifahının yüksəlməsinə xidmət edir. İxrac olunan hər bir məhsul isə Azərbaycan istehsalının keyfiyyətini, rəqabət qabiliyyətini və ölkəmizin iqtisadi imkanlarını beynəlxalq miqyasda nümayiş etdirir.

Müasir iqtisadi reallıqlar yerli istehsalçıların qarşısında daha böyük hədəflər müəyyənləşdirir. Bu gün əsas məsələ yalnız daxili tələbatı ödəmək deyil, beynəlxalq standartlara cavab verən, rəqabətədavamlı məhsullar istehsal etməklə yeni bazarlara çıxmaq, ixrac coğrafiyasını genişləndirmək və qeyri-neft sektorunun inkişafına daha sanballı töhfə verməkdir. Bu baxımdan, istehsal müəssisələrinin texnoloji cəhətdən yenilənməsi, məhsul keyfiyyətinin davamlı yüksəldilməsi və xarici bazarlardakı mövqelərinin möhkəmləndirilməsi xüsusi əhəmiyyət daşıyır.

Ləzzət Biskvit və Şokolad Fabrikinin keçdiyi inkişaf yolu məhz bu iqtisadi hədəflərin real nəticələrə çevrilməsinin nümunəsidir. Bu təcrübə göstərir ki, yerli istehsala yatırılan investisiya, dövlətin yaratdığı əlverişli biznes mühiti və sahibkarın ardıcıl inkişaf strategiyası təkcə bir müəssisənin deyil, bütövlükdə, regionun iqtisadi həyatının canlanmasına təkan verə bilər. Ən əsası vaxtilə kiçik istehsal təşəbbüsü kimi fəaliyyətə başlayan müəssisə bu gün yeni iş yerləri yaradan, ixrac imkanlarını genişləndirən və Azərbaycan məhsullarını xarici bazarlarda tanıdan istehsal subyektinə çevrilib. Bu, yerli istehsalın inkişafının, iqtisadiyyatın şaxələndirilməsinin və milli məhsulların rəqabət gücünün artırılmasının konkret təzahürüdür.

Nail ƏSGƏROV





Zamanın yaddaşına yazılan söz – "Şərq qapısı" 105
Dünəndən bu günə, bu gündən sabaha uzanan bir ömrün monoloqu



105 ildir ki, sözüm var...

Mən bu torpağın neçə-neçə səhərinə açılmışam. Neçə nəslin sevincinə, qayğısına, ümidinə, narahatlığına şahid olmuşam. Zamanın dəyişən üzünü görmüş, tariximizin ən mürəkkəb, ən taleyüklü anlarını səhifələrimə köçürmüşəm. Bəzən bir kəndin quruculuq xəbərini, bəzən bir insanın sevincini, bəzən də bütöv bir xalqın taleyinə təsir edən hadisələri oxucularıma çatdırmışam. İllər keçib, nəsillər dəyişib, hadisələr tarixə qovuşub. Mən isə hər dövrün yaddaşında öz sözümü yaşatmağa çalışmışam.

1921-ci ilin noyabrında "Cavanlar həyatı" adı ilə dünyaya göz açmışam. Naxçıvanın ilk mətbu orqanı kimi başlayan bu yol sonralar "Füqəra səsi" adı ilə davam edib, 1922-ci ildən isə "Şərq qapısı" adı ilə tanınmağa başlamışam. O zaman qarşıda məni hansı taleyin gözlədiyini, neçə-neçə tarixi hadisənin şahidi olacağımı, bir əsrdən artıq yol keçəcəyimi, bəlkə də, heç kəs təsəvvür etmirdim...

Adlar dəyişib, dövrlər bir-birini əvəz edib, cəmiyyətin qarşısında yeni vəzifələr, yeni çağırışlar yaranıb. Ancaq mənim əsas missiyam – yaşadığım zamanın hadisələrini qeydə almaq, insanları məlumatlandırmaq, maarifləndirmək və ictimai fikrin formalaşmasına xidmət etmək – dəyişməyib.

Ömrümün ilk onillikləri asan keçməyib. Xüsusilə İkinci Dünya müharibəsi illərində səhifələrimdə faşizmə qarşı mübarizə, qələbəyə inam, Vətənə bağlılıq və insanları birliyə səsləyən çağırışlar mühüm yer tutub. Müharibənin ağır günlərində sözün də bir cəbhəsi vardı. Mən həmin cəbhədə öz qələmimlə dayanmış, oxucularımı mübarizəyə, dözümə, qələbəyə inama səsləmişəm. Vətənpərvərlik ruhunun yüksəldilməsinə, xalqın mənəvi birliyinin möhkəmlənməsinə xidmət etmişəm. O illərin qəzet səhifələri bu gün yalnız mətbuat tarixinin deyil, həm də xalqımızın müharibə dövründəki mənəvi mübarizəsinin sənədləridir.

Zaman irəliləyib, qarşıma yeni səhifələr açılıb. Ötən əsrin 70-ci illərində Ümummilli Lider Heydər Əliyevin Azərbaycana rəhbərliyi ilə ölkənin bütün bölgələrində olduğu kimi, Naxçıvanda da geniş quruculuq və inkişaf mərhələsi başlanıb. Yeni qəsəbələr, mikrorayonlar salınıb, zavod və fabriklər, məktəblər, elm və mədəniyyət ocaqları fəaliyyətə başlayıb, kənd təsərrüfatı inkişaf edib. Bu dəyişikliklər mənim səhifələrimdə də öz əksini tapıb. Hər yeni tikili, hər yeni müəssisə, hər bir uğur Naxçıvanın inkişaf salnaməsinə çevrilərək oxucularıma çatdırılıb.

Həmin illər mənim üçün həm də xüsusi bir qürur mənbəyidir. Nəşrimin 50 illik yubileyi münasibətilə Ümummilli Lider Heydər Əliyev tərəfindən "Şərəf nişanı" ordeni ilə təltif olunmuşam. Bu, yalnız bir qəzetin fəaliyyətinə verilən qiymət deyildi. Bu, illərlə xalqına xidmət edən, maarifçilik missiyasını daşıyan, ictimai həyatın salnaməsini yaradan mətbuat orqanının əməyinə göstərilən diqqət idi. Ulu Öndərin Azərbaycana rəhbərlik etdiyi həmin illərdə milli-mənəvi dəyərlərin qorunması, Azərbaycançılıq düşüncəsinin yaşadılması üçün yaranan imkanlar mənim də səhifələrimdə öz ifadəsini tapıb. Sözün ictimai təsir gücü, mətbuatın maarifçilik missiyası və milli kimliyin təbliği mənim fəaliyyətimin əsas istiqamətlərindən olub.

Ancaq tariximin ən taleyüklü səhifələri hələ qarşıda idi...

Ötən əsrin 90-cı illəri Naxçıvan üçün ağır sınaqlar dövrü idi. Azərbaycanın müstəqilliyi uğrunda mübarizənin yeni mərhələyə qədəm qoyduğu, ölkənin siyasi taleyinin həll olunduğu, Naxçıvanın isə blokada şəraitində ciddi çətinliklərlə üzləşdiyi həmin illərdə mən də tarixin məsuliyyətini daşıyırdım. Səhifələrimdə yalnız baş verən hadisələri qeydə almır, həm də xalqın düşüncəsini, müstəqillik arzusunu, dövlətçilik iradəsini ifadə edirdim.

1990-cı il iyunun 22-də Moskvadan Naxçıvana qayıdan Ümummilli Lider Heydər Əliyevin ilk müsahibəsini məhz mənim səhifələrimdə verməsi ömrümün ən unudulmaz hadisələrindən biridir. "Daha susa bilməzdim" sərlövhəli həmin müsahibə mənim üçün, sadəcə, bir jurnalist söhbəti deyildi. Bu, Azərbaycanın gələcək siyasi taleyində mühüm rol oynayacaq tarixi şəxsiyyətin xalqı ilə yenidən görüşünün, öz düşüncələrini, mövqeyini və mübarizə əzmini ifadə etməsinin mühüm bir anı idi.

Həmin müsahibədə Ulu Öndər mənim haqqımda belə demişdi: ***"Mən "Şərq qapısı" qəzetinin təsiri altında tərbiyələnmişəm. Hələ gənc ikən burada orta məktəbdə, pedaqoji texnikumda oxuyanda müxtəlif məsələləri öyrənmək üçün "Şərq qapısı"ndan çox istifadə etmişəm. O vaxtdan nüfuzlu qəzet kimi hafizəmdə qalıb".***

Bu sözlər mənim üçün zamanın sınağından keçmiş ən böyük mənəvi qiymətlərdən biridir. Bir vaxtlar gənc Heydər Əliyevin mütaliə etdiyi, bilik və dünyagörüşünün formalaşmasında bəhrələndiyi qəzetin illər sonra onun tarixi missiyasının mühüm məqamlarından birinə şahidlik etməsi necə də mənalıdır. Bu müsahibə mənim səhifələrimə köçən növbəti yazı olmaqla yanaşı, Azərbaycan dövlətçilik tarixinin yaddaşında yaşayan sənədə çevrilib.

1990-1993-cü illərdə Ümummilli Liderin Naxçıvandan başlatdığı xilaskarlıq və müstəqillik missiyasının ictimaiyyətə çatdırılmasında, dövlətçilik ideyalarının təbliğində mənim də üzərimə böyük məsuliyyət düşürdü. Həmin illərin mürəkkəb siyasi prosesləri, qəbul edilən tarixi qərarlar, xalqın mübarizə əzmi və gələcəyə inamı səhifələrimdə öz əksini tapıb. Bu gün o materialları vərəqləyərkən təkcə keçmişin hadisələrini deyil, müstəqil dövlətçiliyimizin təməllərinin hansı çətinliklər və mübarizələr bahasına möhkəmləndiyini də görmək mümkündür. Mənim arxivimdə qorunan həmin yazılar Naxçıvanın və Azərbaycanın yaxın tarixini öyrənmək üçün qiymətli mənbədir.

Mənim yaddaşım yalnız böyük tarixi şəxsiyyətlərin, siyasi qərarların və ictimai hadisələrin yaddaşı deyil. Burada bir müəllimin ömründən, bir ziyalının düşüncəsindən, bir fəhlənin zəhmətindən, bir kəndin quruculuq tarixindən, bir sənətkarın yaradıcılığından da izlər var. Müxtəlif illərdə redaksiyamda çalışan jurnalistlər, redaktorlar, ədəbi işçilər, texniki əməkdaşlar bu ömrün yaranmasına öz töhfələrini veriblər. Kimisi ilk yazısını burada dərc etdirib, kimisi jurnalistlik fəaliyyətinə bu redaksiyada başlayıb, kimisi uzun illər qələmi, biliyi və peşəkarlığı ilə nüfuzumun qorunmasına xidmət edib. Onların hər birinin zəhməti mənim tariximin ayrılmaz hissəsidir. Çünki qəzetin ömrünü yalnız çap olunan nömrələr deyil, o nömrələrin arxasında dayanan insanların əməyi də yaşadır.

İndi isə başqa bir zamandayam. Dünya dəyişib, informasiya sürət qazanıb, oxucunun xəbərə münasibəti və informasiya əldə etmək vərdişləri yenilənib. Bir vaxtlar çap olunmasını gözlədiyim xəbərlər indi saniyələr ərzində dünyanın müxtəlif guşələrinə çatır. Müasir texnologiyalar jurnalistikaya yeni imkanlar açır, amma bu imkanlarla yanaşı, yeni məsuliyyətlər də gətirir. İnformasiya bolluğunda həqiqəti seçmək, faktı dəqiqləşdirmək, etibarlı mənbəyə söykənmək, operativliklə peşəkarlığı uzlaşdırmaq əvvəlkindən daha vacibdir. Sürət xəbəri uzaqlara çatdıra bilər, ancaq onun dəyərini müəyyən edən yenə də həqiqətə sədaqətdir.

Mən də zamanla ayaqlaşmalıyam. Çap səhifələrimlə yanaşı, elektron platformalarda, sosial şəbəkələrdə, multimedia mühitində də oxucularımla görüşməliyəm. Ancaq bu yenilənmə mənim tarixi kimliyimi unutmağım demək deyil. Əksinə, 105 illik təcrübəmi müasir jurnalistikanın imkanları ilə birləşdirməli, Naxçıvanın ictimai, iqtisadi, elmi və mədəni həyatını daha geniş auditoriyaya çatdırmalıyam. Arxivlərimdə qorunan materiallar araşdırılmalı, tarixi sənədlər yeni nəsillərə təqdim edilməli, keçmişin təcrübəsi gələcəyin jurnalistləri üçün öyrənilən bir məktəbə çevrilməlidir.

Mənim sabahım da məhz bu məsuliyyətdən başlayır. Oxucuma yalnız məlumat çatdırmaq deyil, onun düşünməsinə, müqayisə aparmasına, hadisələrin mahiyyətini anlamasına kömək etmək istəyirəm. Cəmiyyət üçün əhəmiyyətli mövzuları araşdırmaq, faktlara söykənmək, fərqli fikirləri peşəkar şəkildə işıqlandırmaq, ictimai marağı diqqətdə saxlamaq müasir media fəaliyyətimin əsas istiqamətləri olmalıdır. Tarixi irsimə sadiq qalaraq yeni dövrün tələblərinə cavab vermək, ənənə ilə yeniliyi uzlaşdırmaq mənim qarşımdakı əsas vəzifədir.

105 il… Bu rəqəmin arxasında nə qədər insan ömrü, nə qədər zəhmət, nə qədər hadisə və xatirə dayanır. Neçə-neçə nəsil mənim səhifələrimlə böyüyüb, neçə-neçə insan öz sözünü burada yaşadıb. Bu gün də redaksiyamda yeni nömrə hazırlanır. Yazılar oxunur, faktlar dəqiqləşdirilir, başlıqlar seçilir, səhifələr formalaşır. Bir əsrdən artıq əvvəl ilk nömrəmi əlinə alan oxucu ilə bugünkü oxucum arasında böyük zaman məsafəsi var. Amma mənim əsas amalım dəyişməyib: yaşadığım dövrün həqiqətini yazmaq, yaddaşı qorumaq və gələcəyə söz qoymaq.

İndi geriyə baxanda bir daha anlayıram ki, qəzetin yaşı təqvimdəki illərlə ölçülsə də, onun əsl ömrü oxucusunun yaddaşında yaşayır. Mənim 105 illik yolum da məhz bu yaddaşın içindən keçir. Dünənin hadisələri bu günün tarixinə, bu günün sözü isə sabahın xatirəsinə çevrilir.

Mən dünəndən bu günə gəlmişəm. İndi isə bu günü sabaha daşımaq istəyirəm. Çünki zaman dəyişir, nəsillər yenilənir, informasiya vasitələri fərqli şəkillər alır, amma sözün məsuliyyəti dəyişmir. Mənim də yaşamaq, yenilənmək və gələcəyə çatmaq istəyim elə bu məsuliyyətdən doğur.

105 ildir ki, yazıram. Və hələ yazılacaq çox sözüm var…

Rəmzi TAHİRLİ

"Sözümüz imzamızdır" və "Arı" kitablarının təqdimatı keçirilib

Noyabrın 6-da Naxçıvan Dövlət Universitetinin Elmi kitabxanasında ali təhsil ocağının "Bələdiyyə və turizm" kafedrasının dosenti, iqtisad üzrə fəlsəfə doktoru, "Şərq qapısı" qəzetinin əməkdaşı Əli Cabbarovun iki yeni kitabının təqdimat mərasimi keçirilib. Milli mətbuatın 150 illiyinə həsr olunan "Sözümüz imzamızdır" və Naxçıvan Dövlət Universitetinin sabiq prorektoru, görkəmli alim, filologiya üzrə elmlər doktoru, Əməkdar elm xadimi Hüseyn Həşimlinin xatirəsinə həsr edilən "Arı" kitablarının təqdim olunduğu tədbirdə universitetin professor-müəllim heyətinin üzvləri, şəhid ailələrinin nümayəndələri, jurnalistlər, ictimaiyyət nümayəndələri və tələbələr iştirak ediblər.



Tədbiri giriş sözü ilə açan universitetin rektoru Elbrus İsayev müəllifin elmi-pedaqoji və jurnalist fəaliyyətindən, yaradıcılığının əsas istiqamətlərindən danışıb. Bildirilib ki, "Sözümüz imzamızdır" kitabında Qarabağ Zəfərinin tarixi, siyasi və dövlətçilik aspektləri, 44 günlük Vətən müharibəsinə aparan proseslər, dövlət-xalq-ordu birliyi və tarixi Qələbənin əhəmiyyəti publisistik baxımdan işıqlandırılıb. Nəşrdə, həmçinin Azərbaycanın dövlətçilik siyasəti, milli birliyin möhkəmləndirilməsi, ölkəmizin beynəlxalq mövqeyinin güclənməsi, Qarabağ həqiqətlərinin dünyaya çatdırılması və tarixi yaddaşın qorunması məsələlərinə yer verilib. Zəngəzurun tarixi Azərbaycan torpağı kimi öyrənilməsi, bölgənin milli-mənəvi irsinin və tarixi keçmişinin təbliği də kitabın diqqətçəkən mövzularındandır.

Rektor Əli Cabbarovun "Şərq qapısı" qəzetində dərc olunan tənqidi-satirik yazılarının aktuallığını və özünəməxsus üslubunu da vurğulayaraq onların jurnalistika sahəsində təhsil alan tələbələr və media nümayəndələri üçün faydalı təcrübə mənbəyi olduğunu qeyd edib.

Tədbirdə çıxış edən "Şərq qapısı" qəzetinin baş redaktoru Rəmzi Tahirli, İqtisadiyyat və idarəetmə fakültəsinin dekanı, iqtisad üzrə fəlsəfə doktoru, dosent Əşrəf Ələkbərov və "Bələdiyyə və turizm" kafedrasının müdiri, fəlsəfə doktoru Flora Kərimova müəllifi yeni nəşrlər münasibətilə təbrik ediblər. Çıxışlarda qeyd olunub ki, 11 kitabın, 100-ə yaxın elmi məqalənin və ölkənin aparıcı mətbuat orqanlarında dərc olunmuş yüzlərlə publisistik-analitik yazının müəllifi olan Əli Cabbarov uzun illərdir, elmi-pedaqoji və jurnalist fəaliyyəti ilə seçilir. Onun yaradıcılığı iqtisadi və ictimai-sosial məsələlərin araşdırılması, aktual problemlərin işıqlandırılması, elmi düşüncə və maarifçilik ənənələrinin təbliği baxımından əhəmiyyət daşıyır.

"Jurnalistika və rəqəmsal media" fakültəsinin dosenti, filologiya üzrə fəlsəfə doktoru, "Arı" kitabının ön söz müəllifi İman Cəfərov isə Əli Cabbarovun yaradıcılığında elmi təhlil və publisistik yanaşmanın vəhdət təşkil etdiyini bildirib. Qeyd edib ki, müəllifin yazıları faktların təhlili, məntiqi ümumiləşdirmələr və aktual problemlərə tənqidi münasibəti ilə seçilir. Onun universitetdəki pedaqoji fəaliyyəti də elmi bilik və təcrübənin gənc nəslə ötürülməsi baxımından mühüm əhəmiyyət daşıyır.

Sonda müəllif Əli Cabbarov kitabların ərsəyə gəlməsinə və təqdimat mərasiminin təşkilinə dəstək göstərənlərə, o cümlədən nəşrlərin sponsoru "Sirab" şirkətinə təşəkkürünü bildirib. Daha sonra o, Birinci Qarabağ və 44 günlük Vətən müharibələrində şəhidlik zirvəsinə ucalmış Kükü kəndindən olan qəhrəmanlar – Müşfiq Həsənovun, Novruzəli Quliyevin və Kamran Hüseynovun, eləcə də mərhum professor Hüseyn Həşimlinin ailə üzvlərinə və tədbir iştirakçılarına kitablarını təqdim edib.

Məcid RƏŞADƏTOĞLU



"Heydər Əliyev dedi ki, uşaqlarınızı havaya qaldırın, onlar bizim azadlıq bayrağımızdır"

"Şərq qapısı" qəzeti – 105

"Şərq qapısı" qəzeti onlar üçün ilk qələm təcrübələrinə işıq salan, yaradıcılıq yollarına istiqamət verən, sözə və sənətə sevgi aşılayan doğma bir ocaq, sözün əsl mənasında, həyat məktəbi olub. Bu qocaman söz çinarının kölgəsində ilk yazılarını çap etdirən qələm sahibləri zaman keçdikcə püxtələşib, özünəməxsus üslubları və sanballı yazıları ilə oxucuların rəğbətini qazanıblar. İllər ötdükcə onların qəzetə bağlılığı daha da möhkəmlənib. Bu bağlılıq o qədər dərin olub ki, mətbuat ocağı onların yalnız yaradıcılıq taleyində deyil, şəxsi həyatlarında da silinməz izlər buraxıb. Hətta gələcək ailə həyatlarının təməli də məhz burada qoyulub. Söhbət ömürlərinin ən məhsuldar, ən mənalı illərini "Şərq qapısı" qəzetinə həsr edən, talelərini həm jurnalistika sənətində, həm də ailə həyatında birləşdirən jurnalist Məmmədovlar cütlüyündən – Afət müəllim və Xuraman xanımdan gedir. Bir həftəsonu onlarla telefon vasitəsilə əlaqə saxlayaraq həmsöhbət olduq. Qəzetimizə böyük sevinc və şövqlə müsahibə verən jurnalist cütlük yaddaşlarını təzələdi, ötən illərə nəzər salaraq xatirələrini bizimlə bölüşdü.

Respublikanın Əməkdar mədəniyyət işçisi Afət Məmmədov söhbətə "Şərq qapısı" qəzetinin onun həyatındakı yerindən bəhs etməklə başlayır: "Şərq qapısı" qəzeti bizim üçün böyük məktəbdir. Hər şeydən əvvəl, bu qəzet bizim üçün bir ailə olub. Gənclik illərimizdən başlayaraq ömrümüzün ən məhsuldar çağlarını bu qəzetə həsr etmişik. İlk qələm təcrübələrimiz çap olunanda çox gənc idik, mətbuata yenicə qədəm qoymuşduq. Buna baxmayaraq, "Şərq qapısı" bizi böyük doğmalıqla qarşıladı, öz səhifələrində bizə yer verdi. Məhz bu qəzetdə jurnalistikanın sirlərinə yiyələndik, mətbuatda öz yolumuzu tapdıq, peşəkar qələm sahibləri kimi formalaşdıq. Qəzetin kollektivi, oradakı yaradıcı mühit o qədər doğma və səmimi idi ki, "Şərq qapısı"nda fasiləsiz olaraq 24 il çalışdım. Daha sonra Naxçıvan Şəhər İcra Hakimiyyətinin orqanı olan "Nuh yurdu" qəzetinin ilk baş redaktoru oldum. Bir sözlə, qələmimi, bütövlükdə, Naxçıvana, onun inkişafına və tərəqqisinə həsr etdim. Ailəlikcə Bakıya köçənədək burada fəaliyyət göstərdim".

Afət müəllim həyat yoldaşı Xuraman xanımla birlikdə muxtar respublikanın ictimai-siyasi, sosial və mədəni həyatının işıqlandırılmasında, onun təbliğində mühüm xidmətlər göstərib. Bakıya köçdükdən sonra isə fəaliyyətlərini paytaxt mətbuatında davam etdiriblər. Afət müəllim Bakıda keçirdikləri illərdən danışarkən deyir: "Bakıya köçdükdən sonra hər ikimiz mərkəzi mətbuatda çalışmağa başladıq. Həyat tərzimizin bir anda dəyişməsi, təbii olaraq, yaradıcılıq fəaliyyətimizə də təsir göstərdi. Mən əvvəlcə "Respublika" qəzetində şöbə müdiri və redaktor müavini, daha sonra "Azərtac"da müxbir, ardınca isə "Xalq qəzeti"ndə baş redaktor müavini vəzifələrində çalışdım. Ümumilikdə, mətbuat sahəsində 50 ilə yaxın səmərəli fəaliyyət göstərdim. Siyasi mövzularda, xüsusən də Azərbaycan Respublikasının beynəlxalq əlaqələrinə dair bir neçə kitab və yüzlərlə məqalə qələmə aldım. Mətbuat sahəsindəki fəaliyyətim dövlətimizin diqqətindən kənarda qalmadı. Mənə Azərbaycanın "Əməkdar mədəniyyət işçisi", həyat yoldaşım Xuraman xanıma isə Azərbaycanın "Əməkdar jurnalist"i fəxri adları verildi. Dövlətimizin xüsusi diqqət və qayğısı sayəsində mənzillə də təmin olunduq. Bundan böyük xoşbəxtlik nə ola bilər ki?"

Həyat yoldaşı ilə çiyin-çiyinə, fədakarlıqla mətbuat sahəsində çalışan Xuraman xanım ömrünün 50 ildən çoxunu jurnalistikaya həsr edib. Bu illərin 35 ili Naxçıvan mətbuatında, 24 ili isə mərkəzi mətbuatda keçib. Jurnalistlik fəaliyyəti boyunca iki qəzet onun üçün doğma ünvana çevrilib: ilk yazılarının çap olduğu "Şərq qapısı" və 24 il çalışdığı "İki sahil" qəzetləri. Xuraman xanımın sözlərinə görə jurnalistikaya sevgisi hələ uşaqlıq illərində atasından qaynaqlanıb: "Mətbuata və jurnalistikaya duyduğum sevgini mənə atam İsmayıl Sadıqov aşılayıb. O, uzun illər "Şərq qapısı" qəzetində şöbə müdiri vəzifəsində çalışıb. Yaxşı xatırlayıram, atam yazı makinasının arxasında əyləşib işləyərkən mən də onun yanına keçər, iri düymələri taqqıldadardım. Elə o vaxtlardan qəlbimdə mətbuata, jurnalistikaya sevgi yaranmağa başlamışdı. Mən də atam kimi jurnalist olmağı, onun istifadə etdiyi yazı makinasında yazılar yazmağı arzulayırdım. Məktəbi əla qiymətlərlə başa vurub Azərbaycan Dövlət Universitetinin Jurnalistika şöbəsinə qəbul olunanda və "Şərq qapısı" qəzetində ilk əmək fəaliyyətimə başlayanda arzumun gerçəkləşdiyini hiss etdim".

Xuraman xanım və Afət müəllimin gənclik illəri Azərbaycanın ən çətin və təlatümlü dövrlərindən birinə təsadüf edib. Ötən əsrin 90-cı illərindən etibarən ölkədə baş verən mürəkkəb siyasi proseslər mətbuatdan da yan keçməyib. Belə bir şəraitdə xalqın maarifləndirilməsi, həqiqətlərin ictimaiyyətə çatdırılması və milli maraqların müdafiəsi kimi mühüm vəzifələr jurnalistlərin üzərinə düşüb. Həmin illərin canlı şahidləri olan Xuraman xanım və Afət müəllim də qələmlərini mübarizə vasitəsinə çevirərək dövrün mürəkkəb siyasi mənzərəsini öz yazılarında əks etdirməyə çalışıblar.

Xuraman xanım o dövrün çətinliklərindən, jurnalistlərin üzərinə düşən məsuliyyətdən, xalqın milli birlik və həmrəylik nümayiş etdirdiyi tarixi məqamlardan söz açaraq deyir: "Ötən əsrin 90-cı illərindən başlayaraq ölkəmizdə baş verən siyasi proseslər, təbii olaraq, mətbuata da təsir göstərdi. Bizim kimi yüzlərlə jurnalist qələmini silaha çevirərək xalqımızı yaşadığı ağır vəziyyətdən xilas etmək üçün çalışır, Ümummilli Lider Heydər Əliyevin ətrafında yumruq kimi birləşərək mübarizə aparırdı. Həmin illəri xatırlamaq çox çətindir. Yadımdadır, Heydər Əliyevə təzyiq göstərmək məqsədilə Naxçıvana bir təyyarə dolusu adam göndərmişdilər. Lakin naxçıvanlılar böyük birlik və həmrəylik nümayiş etdirərək bir yumruq kimi birləşdilər. Gecədən səhərə qədər hava limanında keşik çəkdilər ki, dahi şəxsiyyətə qarşı hər hansı təxribat baş verməsin".

Xuraman xanımın xatirələrində həmin dövrün ağır sınaqları ilə yanaşı, milli həmrəyliyin və siyasi iradənin təcəssümü də xüsusi yer tutur: "1991-ci ildə Heydər Əliyev Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri seçildikdən sonra muxtar respublikada baş verən siyasi proseslər tədricən öz məcrasına düşməyə başladı. Xatırlayıram, 1991-ci ildə Naxçıvan şəhərində, indiki Ali Məclis binasının qarşısında naxçıvanlılar Ulu Öndər Heydər Əliyevin ətrafına toplaşmışdılar. Həmin mitinqdə görkəmli şəxsiyyət çox qiymətli fikirlər səsləndirdi. Onun dilindən eşitdiyim hər bir kəlmə bu gün də yaddaşımdadır. Hətta söylədiyi bir fikir mənim üçün həyat amalına çevrilib. Ulu Öndər yanımızda gətirdiyimiz körpə uşaqlara işarə edərək dedi ki, övladlarınızı qucağınıza alıb havaya qaldırın, çünki onlar bizim azadlıq bayrağımızdır. Bu sözlər ömürlük yaddaşıma həkk olundu".

Xuraman xanımla Afət müəllimin ailə bağları da "Şərq qapısı" qəzetində yaranıb. Eyni ildə qəzetdə əmək fəaliyyətinə başlayan bu cütlük burada tanış olub və sonradan ailə həyatı qurub. Onlar bu ailədə üç övlad böyüdüblər. Təəssüf ki, qızları Şəfa Məmmədova 2009-cu ildə Azərbaycan Dövlət Neft Akademiyasında baş verən terror hadisəsi zamanı həyatını itirib.

"Şərq qapısı" qəzeti ilə bağlı xatirələrini ürəkdolusu bölüşən Məmmədovlar cütlüyü qəzetin 105 illiyini də unutmayıb, təbriklərini böyük sevinc və səmimiyyətlə çatdırıblar: "Şərq qapısı" qəzeti bizim üçün olduqca doğma və əzizdir. Biz bu qəzet vasitəsilə yaradıcılıq yoluna qədəm qoymuş, məhz burada özümüzü, öz imzamızı tapmışıq. Doğma qəzetimiz 105 ildir ki, öz ziyası ilə neçə-neçə jurnalistin həyat yoluna işıq tutur. Bu münasibətlə bütün yaradıcı kollektivi təbrik edir, daha böyük yaradıcılıq uğurları arzulayırıq. Sağ olun ki, bizi yad etmisiniz!"

Xuraman xanım da, Afət müəllim də həyatlarını qəzetə, qəzetçiliyə həsr edən mətbuat fədailəridir. Onların həyatında mətbuat heç vaxt, sadəcə, iş yeri olmayıb. Bu sahə həm yaradıcılıq məktəbi, həm mənəvi bağlılıq mənbəyi, həm də ailə tarixlərinin başlanğıcı olub. Bizdə müsahibəyə görə peşəkar qələm sahiblərinə təşəkkür edir onlara uzun ömür, can sağlığı arzu edirik.

Sözə və mətbuata həsr olunmuş illər



Naxçıvan ədəbi mühitinin yetirdiyi sayseçmə şəxsiyyətlər arasında görkəmli yazıçı, jurnalist və ictimai xadim Məmmədəli Tarverdiyevin də adı xüsusi yer tutur. O, 1910-cu ildə qədim Ordubad rayonunun Dəstə kəndində dünyaya göz açıb.

Məmmədəli Tarverdiyevin həyat və yaradıcılığı XX əsrin ən mürəkkəb və ziddiyyətli ictimai-siyasi hadisələri fonunda formalaşıb, Naxçıvanın ədəbi və ictimai fikir tarixində özünəməxsus iz qoyub. O, 1918-ci ildə ailəsi ilə birlikdə Naxçıvan şəhərinə köçüb. Tarverdiyev burada orta təhsil alıb və gənc yaşlarından ictimai fəaliyyətə maraq göstərib. 1924-1927-ci illərdə Naxçıvan Vilayət Komsomol Komitəsində müxtəlif vəzifələrdə – pioner işi üzrə büro katibi, təlimatçı, təbliğat və təşkilat şöbəsinin müdiri kimi çalışıb. Həmin illərdə təşkilatçılıq və idarəçilik sahəsində təcrübə qazanıb.

1927-ci ildə Naxçıvan Pedaqoji Texnikumunu bitirən Məmmədəli Tarverdiyev bir müddət müəllimlik edib, eyni zamanda "Şərq qapısı" qəzetində məsul katib kimi jurnalistika fəaliyyətinə başlayıb. 1934-1938-ci illərdə Bakı şəhərində Diş Həkimliyi Məktəbində təhsil alsa da, ədəbi və jurnalist fəaliyyətini davam etdirib. Həmin dövrdə "Gənc işçi" qəzetində şöbə müdiri, daha sonra redaktor müavini vəzifələrində çalışıb. Mətbuatda "İstedadlı" və "Hüseynoğlu" kimi təxəllüslərlə də çıxış edib.

Qeyd etmək yerinə düşər ki, ötən əsrin 30-cu illərində Azərbaycan ədəbiyyatının görkəmli yazıçıları Mirzə İbrahimovun və Əli Vəliyevin Naxçıvana ezam olunması ilə regionda yeni ədəbi nəsil formalaşmağa başladı. Dövrünün gənc qələm sahibləri – Müzəffər Nəsirli, Hüseyn Əzim, Hüseyn İbrahimov, Məmmədəli Tarverdiyev və digərləri daha fəal yazıb-yaratmağa, mətbuatla sıx əməkdaşlıq etməyə başlayıblar. Bu illərdə gənc yazarların hekayə və povestləri mətbuatda dərc olunur, oxucuların diqqətini cəlb edirdi.

Bir neçə il əvvəl görkəmli yazıçı-jurnalist Məmmədəli Tarverdiyevin oğlu, hazırda Türkiyədə yaşayan Hikmət müəllimlə telefon vasitəsilə həmsöhbət ola bilmişdim. O atasının çap olunmuş əsərləri ilə yanaşı, oxuculara hələ də məlum olmayan, ailə arxivində qorunan çoxsaylı oçerk, hekayə və məqalələrinin olduğunu bildirmişdi. Onun sözlərinə görə Məmmədəli Tarverdiyev həm jurnalist işlədiyi illərdə, həm də məsul vəzifələrdə çalışarkən gənclərə dəstək olur, onlara yol göstərirdi. Haqqında qələmə alınmış məqalələrdən məlum olur ki, görkəmli Azərbaycan yazıçısı, ikicildlik "Zəngəzur" romanının müəllifi Əyyub Abbasovun ilk şeir kitabı da Məmmədəli Tarverdiyevin təşəbbüsü ilə "Şərq qapısı" qəzetinin mətbəəsində çap olunub.

Gənc yaşından yaradıcılıq yoluna qədəm qoyan Məmmədəli Tarverdiyevin fəaliyyəti yalnız jurnalistika və ədəbiyyatla məhdudlaşmayıb. O, 1940-cı ildə Naxçıvan şəhər Zəhmətkeş Deputatları Soveti İcraiyyə Komitəsinin sədri, 1941-1947-ci illərdə isə "Şərq qapısı" qəzetinin redaktoru və Naxçıvan Vilayət Partiya Komitəsində şöbə müdiri vəzifələrində çalışıb. Sonrakı illərdə Naxçıvan Tibb Texnikumunun direktoru, şəhər səhiyyə şöbəsinin müdiri və rayon partiya komitəsinin birinci katibi kimi məsul vəzifələrdə işləyib. Onun "Şərq qapısı" qəzetinə redaktorluq etdiyi illər Azərbaycanın ən çətin dövrlərinə – İkinci Dünya müharibəsinə təsadüf edib.

Əmək fəaliyyətinin sonrakı mərhələsində Məmmədəli Tarverdiyev Naxçıvan Dövlət Musiqili Dram Teatrının direktoru, Naxçıvan Nazirlər Soveti sədrinin köməkçisi və Naxçıvan Vilayət Komsomol Komitəsinin Veteranlar Şurasının sədri kimi fəaliyyət göstərib. Beləliklə, ömrünün böyük bir hissəsi ictimai idarəçilik, ədəbi-mədəni fəaliyyətlə sıx bağlı olub.

Məmmədəli Tarverdiyevin ilk mətbu əsəri 1928-ci ildə "Şərq qapısı" qəzetində dərc olunan "Yenilik qızı" adlı oçerkdir. Bu əsərlə o, mətbuat və ədəbiyyat aləminə ilk addımını atmışdı. Sonrakı illərdə qələmə aldığı hekayə və povestlərdə də müşahidə etdiyi həyat hadisələrinə, insanların gündəlik qayğılarına və dövrün ictimai mənzərəsinə geniş yer verib.

Tərcümeyi-halından məlum olur ki, 1929-cu ildən Azərbaycan Proletar Yazıçılar Cəmiyyətinin Naxçıvan filialında fəaliyyət göstərib, sonralar Azərbaycan Yazıçılar İttifaqının Naxçıvan filialının məsul katibi olub. O həmçinin "Bilik" Cəmiyyətinin şəhər təşkilatına rəhbərlik edib.

Məmmədəli Tarverdiyev dramaturgiya sahəsində də məhsuldar fəaliyyət göstərib. Onun qələmə aldığı "Kölgəli dağ", "Qəmküsar" və "Zaman" pyesləri Naxçıvan teatrında səhnələşdirilib.

Ümumiyyətlə, onun hekayələrində sadə həyat yaşayan insanların gündəlik məşğuliyyəti, o cümlədən dövrün ab-havası canlı şəkildə təsvir edilirdi. Yazıçı doğulub boya-başa çatdığı Naxçıvanın milli-mənəvi dəyərlərini, kənd zəhmətkeşlərinin sosial həyatını əsərlərində özünəməxsus şəkildə ifadə edirdi.

Məmmədəli Tarverdiyevin publisistik və bədii yaradıcılığında dövrün ideoloji xüsusiyyətləri ilə yanaşı, xalq həyatının müxtəlif tərəfləri də geniş əksini tapırdı. Əsərlərində etnoqrafik detallar, sosial münasibətlər, insanların mənəvi dünyası və daxili narahatlıqları diqqəti cəlb edir. Bu xüsusiyyətlər yazıçının yaradıcılıq irsini yalnız dövrünün deyil, müasir tədqiqatlarının da maraq dairəsinə daxil edir.

Məmmədəli Tarverdiyev ədəbi-publisistik və ictimai fəaliyyətinə görə bir sıra mükafatlarla təltif olunub. O, 1946-cı ildə "Şərəf nişanı" ordeninə, həmçinin müxtəlif medallara və fəxri fərmanlara layiq görülüb. Yazıçının çap olunmuş əsas kitabları sırasında "Naxçıvanın mayakları" (1963), "Mehriban insanlar" (1973) və "Kölgəli dağ" (1984) xüsusi yer tutur. Bu əsərlərdə sənədli materiallarla bədii təsvirlər vəhdət təşkil edir, dövrün ictimai həyatı, insan münasibətləri və Naxçıvan mühitinin müxtəlif cəhətləri əks olunur.

Məmmədəli Tarverdiyev XX əsr Naxçıvan ədəbi-mədəni mühitində çoxşaxəli fəaliyyəti ilə seçilən yaradıcı şəxsiyyətlərdən biri olub. Ömrünün 84 ilini sözə, mətbuata, ədəbiyyata və ictimai fəaliyyətə həsr edən görkəmli yazıçı 1994-cü ildə dünyasını dəyişib. O, Naxçıvan şəhərində dəfn olunub. Onun həyat və yaradıcılıq yolu isə Naxçıvanın ədəbi salnaməsində özünəməxsus yer tutur.


Məcid RƏŞADƏTOĞLU

Özünüməşğulluq proqramı yeni imkanlar yaradır

Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 7 aprel tarixli "Əhalinin özünüməşğulluğunun təmin olunması sahəsində əlavə tədbirlər haqqında" Sərəncamına əsasən həyata keçirilən özünüməşğulluq proqramı əhalinin məşğulluğunun təmin edilməsi, aztəminatlı ailələrin sosial rifahının yaxşılaşdırılması və kiçik sahibkarlığın inkişafı baxımından mühüm əhəmiyyət daşıyır. Naxçıvan Muxtar Respublikasında da proqram çərçivəsində bu istiqamətdə ardıcıl tədbirlər görülür.

2026-cı ilin yanvar-sentyabr ayları ərzində öz kiçik biznesini qurmaq istəyən 114 işsiz şəxsə aktivlər təqdim edilib. Onlardan 94 nəfəri kənd təsərrüfatı, o cümlədən 50 nəfəri qoyunçuluq, 44 nəfəri arıçılıq, 20 nəfəri isə istehsal və xidmət sahələri üzrə fəaliyyət göstərmək üçün müvafiq əmlaklarla təmin olunub. Həmin şəxslərdən bir neçəsi ilə həmsöhbət olub, onların fəaliyyətləri ilə maraqlandıq.

Naxçıvan şəhərində avto çilingər xidməti göstərən Ülvü Məmmədov özünüməşğulluq



proqramının builki iştirakçılarındandır. O, Naxçıvan Muxtar Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyinə müraciət edib, cari ildə müstəqil fəaliyyətini qurmaq üçün zəruri avadanlıqlarla təmin olunub. Təqdim edilən aktivlərə 4 tonluq avto qaldırıcı, 12 tonluq hidravlik press, 2,25 tonluq qaldırıcı qurğu, 100 litrlik hava kompressoru, kompressor borusu və birləşdiricisi, qarışıq alətlər dəsti, bir silindrli dişli hidravlik stend və açar tapançası daxildir.

Müsahibimiz bildirdi ki, bu avadanlıqlar ona işini daha səmərəli təşkil etməyə, göstərdiyi xidmətlərin çeşidini və imkanlarını genişləndirməyə şərait yaradıb. Əvvəllər qazancının daha az olduğunu qeyd edən Ülvü Məmmədov indi gəlirlərini artırmaq üçün daha geniş imkanlara malikdir. Onun fikrincə, bu cür dəstək insanların öz zəhməti hesabına dolanışığını yaxşılaşdırmasına və müstəqil fəaliyyətini inkişaf etdirməsinə əhəmiyyətli töhfə verir.

Şıxmahmud kəndində avto çilingər xidməti göstərən Taryel Həsənov da bu il proqram çərçi-



vəsində müvafiq avadanlıqlarla təmin olunub. Ona təqdim edilən aktivlər arasında avto qaldırıcı, hidravlik press, qaldırıcı qurğu, hava kompressoru, kompressor borusu və birləşdiricisi, qarışıq alətlər dəsti, hidravlik stend və açar tapançası yer alır.

Sözügedən avadanlıqlar avto çilingər xidmətinin təşkili və gündəlik işlərin daha rahat, operativ görülməsi üçün mühüm vasitələrdir. Bu dəstək Taryel Həsənova öz bacarıqlarını müstəqil əmək fəaliyyətinə çevirmək, müştərilərə göstərdiyi xidmətin keyfiyyətini yüksəltmək və gəlir əldə etmək üçün yeni imkanlar yaradıb. Eyni zamanda belə təşəbbüslər kənd yerlərində də kiçik sahibkarlığın və xidmət sahələrinin inkişafına şərait yaradır.

Özünüməşğulluq proqramının əhəmiyyəti yalnız vətəndaşların ilkin aktivlərlə təmin olunmasında deyil, həm də onların sonrakı dövrdə müstəqil təsərrüfat quraraq fəaliyyətlərini davam etdirməsində özünü göstərir. Şahbuz rayonunun Külüs kənd



sakini Qalib Quliyevin təcrübəsi də bunu təsdiqləyir. O, 2025-ci ildə proqram çərçivəsində üç baş iribuynuzlu mal-qara və 800 kiloqram qarışıq yemlə təmin olunub. Hazırda maldarlıqla məşğul olan təsərrüfatçı təqdim edilən aktivlərin təsərrüfatının qurulması və fəaliyyətinin davam etdirilməsi baxımından mühüm dəstək olduğunu bildirir. Qalib Quliyev əldə etdiyi imkanlardan yararlanaraq təsərrüfatını inkişaf etdirməyə, gələcəkdə fəaliyyətini daha da genişləndirməyə çalışır.

Göründüyü kimi, özünüməşğulluq proqramı çərçivəsində təqdim olunan aktivlər insanların yalnız ilkin maddi ehtiyaclarının qarşılanmasına deyil, həm də davamlı gəlir mənbəyi yaratmasına xidmət edir. Proqramdan yararlanan şəxslər əldə etdikləri avadanlıq və digər aktivlər hesabına öz bacarıqlarını real iqtisadi fəaliyyətə çevirir, ailə büdcələrinin möhkəmləndirilməsi üçün yeni imkanlar qazanırlar. Bu imkanlardan səmərəli istifadə olunması isə fərdi rifahla yanaşı, regionda məşğulluğun artırılmasına və iqtisadi fəallığın yüksəldilməsinə də töhfə verir.

Zəhra VƏLİYEVA

Şahbuz dağlarında balın izi ilə – 500-dən çox arı yeşiyinə sahib arıçı

Naxçıvanın yüksək yaylaqlarında, Şahbuz rayonunun Kolanı kəndində yay boyu səhər tezdən arı yeşiklərinin ətrafı qızğın bir vızıltıya bürünür. Arıçı Rəşid Səfərli bu səsi uşaqlıqdan tanıyır. O sadəcə, arıçılıqla məşğul olan bir insan deyil, həm də bu torpağın balını dağdan-dağa daşıyan, nəsildən-nəslə ötürülən bir peşənin davamçısıdır. İki qardaşı ilə birlikdə gözünü açıb gördüyü, böyüdükcə həyatının ayrılmaz hissəsinə çevrilən bu iş bu gün də onun gündəlik qayğılarının mərkəzindədir.



Rəşid Səfərli ilə söhbətimiz zamanı arı yeşiklərinin arasında gəzişərək köçəri arıçılığın necə təşkil olunduğunu, mövsümlərin dəyişməsinə uyğun olaraq arıların hansı ərazilərə aparıldığını, onlara necə qulluq göstərildiyini addım-addım izah edir.

Naxçıvanda nektar mövsümü aprelin sonlarında başlayır. Arı yeşikləri ilk olaraq Əshabi-kəhfə aparılır. Burada arılar 15-20 gün ərzində nektar toplayır. Növbəti dayanacaq Heydər Əliyev su anbarının ətrafıdır. Həmin ərazidəki bitki örtüyünün nektar imkanları tükəndikdən sonra arılar Şahbuz rayonuna, daha sonra Kolanı və Biçənək kəndlərinə, nəhayət, Batabat yaylağına köçürülür. Naxçıvanda nektar mövsümü, əsasən, avqustun 15-dək davam edir. Xüsusilə iyul ayı arıçılar üçün əlamətdardır. Çünki bu dövrdə gülçiçək bol olur, nektarın keyfiyyəti yüksəlir. May, iyun və iyul ayları arıların ən məhsuldar dövrü hesab edilir. Bu üç ayı səmərəli keçirmədən ilin bol məhsuluna ümid etmək çətindir.

Bu il isə arıçılar üçün xüsusilə yaddaqalan olub. Rəşid Səfərli uşaqlıq illərindən yaddaşında qalan 2002-ci ili xatırlayır. Həmin vaxt balın bol olduğunu, arı yeşiklərinin ağırlığını bu gün də unutmur. Onun sözlərinə görə, 2026-cı ilin bal mövsümü də məhsuldarlığı ilə həmin ili xatırladıb. Naxçıvanda belə bol nektar olan illərə tez-tez rast gəlinmir.

Təbii ki, bu uğurun arxasında böyük zəhmət dayanır. İstər arıların bir ərazidən digərinə köçürülməsi, istərsə də balın toplanması kifayət qədər fiziki güc və diqqət tələb edir. Yeşiklərin daşınması, arıların müxtəlif təhlükələrdən qorunması, vaxtında müayinə və müalicə işlərinin aparılması arıçının gündəlik qayğılarının yalnız bir hissəsidir.

Batabat yaylağında arıçılıq təkcə bal istehsalı ilə məhdudlaşmır. Burada, eyni zamanda satış da həyata keçirilir. Yaylağa üz tutan yerli və xarici turistlər təzə balı birbaşa arıçıdan əldə etmək imkanı qazanırlar. Təbii balın özünəməxsus dadı və ətri isə onu digər məhsullardan fərqləndirir. Bu sahədə keyfiyyətə nəzarət və istehlakçı etimadının qorunması da mühüm əhəmiyyət daşıyır. Arıçı artıq Qida Təhlükəsizliyi Agentliyindən müvafiq sertifikat əldə etdiklərini bildirir. Bu sənəd məhsulun etibarlılığının təsdiqi və bazarda saxta məhsullardan fərqləndirilməsi baxımından əhəmiyyətlidir.

Payızın gəlişi ilə arıçıların diqqəti, əsasən, arı ailələrinin sağlamlığının qorunmasına yönəlir. Bu dövrdə gənələrə və digər ziyanvericilərə qarşı dərmanlama işləri aparılır. Hava şəraitindən asılı olaraq arılar bəzən açıq havada saxlanılır, bəzən isə qapalı yerlərə köçürülür. Hazırda dərmanlama işləri artıq başa çatıb. Qış ərzində əlavə xəstəlik və ya ciddi problem yaranmasa, gələn il də köçəri arıçılıq ənənəvi qaydada davam etdiriləcək.

Bu prosesdə əsas söz sahibi yenə də hava şəraitidir. Qış sərt keçdikdə arılar qapalı yerlərə yığılır, mülayim havalarda isə aran zonasına daha tez endirilir. Rəşid Səfərli qeyd edir ki, arılar hətta 40 dərəcə şaxtaya da dözə bilir. Lakin soyuqdan istiyə kəskin keçid onların orqanizmində problemlər yarada bilər. Digər tərəfdən, isti havada arıların qapalı məkanda saxlanılması da boğulma təhlükəsi yaradır. Buna görə də hər bir qərar hava şəraiti və arı ailələrinin vəziyyəti nəzərə alınmaqla verilməlidir.



Balın süzülməsinin də öz vaxtı və qaydası var. Arıçı deyir ki, "may balı" adlandırılan məhsul hələ tam yetişmədiyindən, əsasən, sifariş əsasında hazırlanır. Əsas bal süzümü isə avqust ayında həyata keçirilir. Çünki balın tam yetişməsi vacibdir. Yetişməmiş balın qıcqırma ehtimalı yüksək olduğundan bu məsələdə tələsmək olmaz.

Rəşid Səfərlinin narahatlıqla toxunduğu məsələlərdən biri də bazarda saxta balın çoxalmasıdır. Onun sözlərinə görə, arı saxlamadığı halda bal satışı ilə məşğul olanlara da rast gəlinir. Bu isə alıcılarda haqlı olaraq tərəddüd yaradır. Arıçı hesab edir ki, təbii balı müəyyənləşdirmək üçün ən etibarlı yol laboratoriya analizidir.

Hazırda Rəşid Səfərlinin 550 arı yeşiyi var. Onlardan 350-si xüsusi mühafizə olunan qapalı həyətdə saxlanılır. Bunun əsas səbəbi isə ərazidə ayıların arı yeşiklərinə hücum etməsidir. Bal əldə etmək üçün yeşiklərə yaxınlaşan ayılardan arı ailələrini qorumaq məqsədilə təhlükəsiz məkan seçmək vacibdir. Qalan yeşiklər isə müxtəlif ərazilərdə yerləşdirilib. Beş yüzdən çox arı yeşiyinə qulluq göstərmək, əlbəttə, asan deyil. Ancaq Rəşid və qardaşları illərin təcrübəsi sayəsində bu ağır işin özünəməxsus ritminə alışıb, hər birinin qayğısını birlikdə çəkirlər.

Arıçılığın bəhrəsi yalnız balla məhdudlaşmır. Arılardan şan, güləm, arı südü və vərəmum kimi digər məhsullar da əldə edilir. Bunların hər biri özünəməxsus xüsusiyyətləri ilə seçilir və müxtəlif məqsədlərlə istifadə olunur. Arı məhsullarına maraq da ildən-ilə artır. Təbii ki, bu məhsulların faydaları barədə danışarkən onların keyfiyyətinə, düzgün istifadəsinə və sağlamlığa təsirinin elmi əsaslarına diqqət yetirmək də vacibdir.

Yeşiklərin arasında dolaşarkən Rəşid Səfərlinin söhbətindən bir həqiqət aydın görünür: arıçılıq onun üçün sadəcə, qazanc mənbəyi deyil, həyat tərzidir. Kolanı kəndindən başlayan bu yol Əshabi-kəhfdən Batabata qədər uzanır. Rəşid və qardaşları hər il eyni köç yolunu qət edir, təbiətin ritminə uyğun olaraq arı ailələrinin qayğısına qalırlar. Arıların qanad çırpıntısı, yeşiklərin ağırlığı, yaylağın sərin mehi və təzə balın ətri onların həyatının ayrılmaz hissəsinə çevrilib.

Dağlar hər il olduğu kimi, yenə onlara qucaq açır, çiçəklər yenidən nektar verir, arılar yaylaqların qoynunda uçuşur. Arıçılar isə aylarla çəkdikləri zəhmətin bəhrəsini görmək ümidi ilə arı dolu yeşiklərə baxırlar. Çünki bu dağlarda hər damla balın arxasında bir mövsümün əməyi, illərin təcrübəsi və təbiətlə qurulan səssiz bir dostluq dayanır.

Rafiq TƏHMƏZ

İtmişdir

Sədərək rayonu, Dəmirçi kənd sakini Rəsulov Bəhman Müslüm oğlunun adına verilmiş JN-861[A] nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Babək rayonunda yaşamış İsayeva Minayə Hüseynxan qızının adına olan 802 və 802[C] nömrəli torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Şərur şəhəri, K.Seyidov küçəsi, döngə 2, ev 7-də yaşayan İsmayılov İqbal Yusif oğlunun adına olan BD-906382 nömrəli texniki pasport itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Ələkli kənd sakini Həsənov Cahangir Şəmil oğluna məxsus JN-370[A] nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

ŞƏRQ QAPISI

Baş redaktor: RƏMZİ TAHİRLİ

Ünvan: *AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.*

Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: *info@serqqapisi.gov.az*

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Vöen: 0200065441

Çapa imzalanmışdır 00:00

Tiraj: 450. Sifariş № 257

Nömrəyə məsul: Ramiyə Əkbərova, Zəhra Vəliyeva
Dizayner: Pərvin Sadiqov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.